Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

11
APREL
2019-cu il
№ 64 (3962)
Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ABŞ-la İRAN MÜHARİBƏNİN BİR ADDIMLIĞINDA - MİN KİLOMETR SƏRHƏD BOYUNCA ABŞ ƏSGƏRLƏRİNİN «OVU» BAŞLAYIR

■ səh. 8 ■

## Öz deputatları ilə qapalı görüşdə «Əliyevlə görüş necə keçdi» sualı Paşinyanı əsəbləşdirdi...

■ səh. 9 ■



Müdafiə Nazirliyinin valideynlərimizə müraciəti ilginc məqam üzərində geniş müzakirə doğurdu...

■ səh. 3 ■

Ermənistanın Azərbaycana ərazi iddialarına qarşı Rusiya mədəniyyət xadimlərindən daha bir həmlə...

■ səh. 7 ■

Ermənilər saxta genosidi ABŞ-da tanıtmaq səylərinin məzmununda dəyişiklik etdilər...

■ səh. 8 ■

Radikallar "ReAl"ı hakimiyyətə satılmaqda suçlayır, "ReAl" isə 41 min imza ilə qanunlar hazırlayır...

■ səh. 5 ■

Bakıda və rayonlarda mənzil alan əcnəbilərin sayı çoxalır - ərəblər və iranlılar öndə gedir...

■ səh. 12 ■

Sosşəbəkələrdə peyda olmuş intihar videolarını kütləvi tirajlamaq insanlıq işi deyil...

■ səh. 13 ■

Gürcüstan azərbaycanlıları üçün Bakıda təhsilli molla yetişdirmək təklifi...

■ səh. 15 ■

Babək prospektinə "şeytan tüpürüb" - yol yenə çökdü...

■ səh. 15 ■




UNİBANK-ın əməkdaşları devalvasiyadan qabaq jurnalisti aldatdı, Prezidentin məlum sərəncamından sonra hələ də ödəniş tələb edir...

■ səh. 11 ■



Erməni gənclər ordudan yayınmaq və mühacirət etmək üçün üsul tapıblar - «geyləşmək»...

■ səh. 10 ■

Azərbaycanda partiyaların yenidən qeydiyyat vaxtı çatdı - birinin sədri ölüb, birinin yeri bilinmir...

■ səh. 3 ■

■ səh. 6-7 ■

Nizami Xudiyevin şərəfli ömür yolu...



■ səh. 4 ■

Məmurlar arasında büdcə talançılığı deputatları da dilə gətirdi...



■ səh. 5 ■

Müsavat Partiyasında 300 min avroluq maxinasiya söhbətləri cinayət təqibinin predmeti ola bilərmi...



■ səh. 12 ■

Beynəlxalq Valyuta Fondunun bu il Azərbaycanda ÜDM artımı proqnozu nələrə əsaslanır...



■ səh. 14 ■

Xalq artisti Bəsti Cəfərovanın "Azdrama" rəhbərliyinə ünvanladığı ittihamlara teatrdan cavab gəldi





## Şəkiyə 25 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Şəki şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə Azərbaycan Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.7.7-ci yarımbəndində göstərilmiş məbləğin 25 milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın. Maliyyə Nazirliyi sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin edəcək, Nazirlər Kabineti sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## Fransada növbədənkənar seçki təklifi... "Makron fransızların etimad və hörmətini itirdi..."

**Fransada mərkəz sağçı Respublikaçılar Partiyasının parlament qrupunun sədr müavini Kristian Yakob ölkə prezidenti Emmanuel Makronu sərt tənqid edib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Kristian Yakob Makronun fransızların etimad və hörmətini itdiyini, o üzdən yeni seçki keçirmək lazım gəldiyini deyib. Yakob Makronun vəzifəyə gəldiyi gündən apardığı siyasəti tənqid edərək deyib: "Makron əhəmiyyətli dəyişikliklər aparmağı qarşısına məqsəd qoydu, ancaq bacarmadı, ölkəni daha pis vəziyyətə saldı və fransızların ona etimad və hörmətini itirdi. Seçki prezident və hökumətin legitimliyini göstərən yeganə yoldur. Bu səbəbdən yeni prezident seçkisi keçirilməlidir".

# Mətbuat Şurası məktəbli Elina Hacıyevanın intihar görüntülərinin tirajlanmasını pislədi

**Son günlər bəzi internet media reruslarında və müxtəlif sosial şəbəkə profillərində 162 saylı məktəbin 8-ci sinif şagirdi Elina Hacıyevanın intihar etməsi ətrafında çoxsaylı materiallar yayımlanmaqdadır.**




Əlbəttə, ikincilərin hadisənin həssaslığına diqqət yetirməməsi müəyyən mənada anlaşılandır. Ancaq medianın reytinq naminə məsələ ilə bağlı spekulyasiyası qətiyyən yolverilməzdir. Mətbuat Şurası olaraq biz dəfələrlə mövcud istiqamətdə tövsiyələr vermiş, belə yanaşmanın cəmiyyət üçün qeyri-məqbul tərəflərini diqqətə çatdırmışıq.

Bir daha bəyan edirik ki, intihar hallarına dair materiallar yayımlayarkən hadisənin cəmiyyətdə doğuracağı reaksiyanı düşünmək mütləqliyi jurnalistikanın təməl prinsiplərindən irəli gəlir. Ümumən jurnalistikanın prinsipləri tələb edir ki, faciə və ya cinayət əməli nəticəsində zərər çəkmiş, yaxud belə olaylara cəlb edilmiş uşaqların və yeniyetmələrin kimliyi mütləq qorunmalıdır, onların foto şəkilləri, video-görüntüləri yayılmamalıdır.

Təəssüf ki, Elina Hacıyeva ilə bağlı məsələdə bu tələbə əməl edilmədi. Hazırkı durumda bəzi media orqanlarının yanaşması baş vermiş hadisənin ictimai əhəmiyyətlilik dərəcəsini diqqətə çatdırmaq istəyi sayıla bilməz. Nəzərə almaq lazımdır ki, hadisədə bir şəxsin və onun yaxın ətrafının zərər çəkməsi ilə yanaşı, hadisə ilə bağlı təqdimatları izləyən digər cəmiyyət üzvlərinin, xüsusən də Elinanın həmyaşıdlarının mənəvi zərərlə üzləşməsi, sarsıntı keçirməsi kimi həssas məqamlar var.

Bəzi media orqanlarında E.Hacıyevanın foto-görüntüləri ilə yanaşı, onun intihar anını əks edildiyi iddia olunan video-görüntülər də yayımlanmaqdadır. Burada əlaqədar qurumlar üzərinə düşən vəzifələrin icrasında məsuliyyətli davranmalıdırlar. Cəmiyyətin informasiya almaq hüququnu məhdudlaşdırmamaq şərtilə gənclərlə və yeniyetmələrlə bağlı faciələrin, intihar hallarının doğura biləcəyi reaksiya onlar tərəfindən də düzgün hesablanmalı, hansı foto, yaxud videogörüntünün yayıla biləcəyinin mümkünlüyü ciddi nəzərə alınmalı, həmin görüntülərin insanlara təsirinin tərəfləri yetərincə dəyərləndirilməli, spekulyasiyalar üçün meydan verilməməlidir. Bu iş peşəkar qurulmalı, hansısa inzibatçılıqla aparılmamalı, yalnız qanunçuluğa söykənməlidir.

Azərbaycan Mətbuat Şurası bir daha internet media resurslarının təmsilçilərinə müraciət edərək onları öz üzərlərinə düşən missiyaya həssas yanaşmağa, qeyd etdiyimiz məsələləri mütləq qaydada nəzərə almağa çağırır.

# Ərdoğan İstanbulda bələdiyyə seçkilərinin yenidən keçiriləcəyini dedi - ilk seçkidə CHP qalib gəlib

**İstanbulda keçirilmiş bələdiyyə seçkilərinin nəticəsi ləğv edilə bilər. "Trend"in məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.**



Dövlət başçısı bildirib ki, bunun səbəbi İstanbulda səsvermənin nəticəsinin saxtalaşdırılmasıdır.

R.T.Ərdoğan bildirib ki, yeni seçkilərin keçirilməsi səsvermənin real yekun nəticəsinin əldə olunmasına kömək edəcək.

Xatırladaq ki, bundan əvvəl hakim partiyanın İstanbul bölməsinin rəhbəri Bayram Şenocak İstanbulda seçkilərin nəticələrinin müxalif Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi Əkrəm İmamoğlunun xeyrinə saxtalaşdırılması ilə bağlı dəlillərə malik olduğunu bəyan edib.

Ə.İmamoğlu seçkilərdə 4,159 milyon, AKP-nin namizədi Binəli Yıldırım isə 4,131 səs qazanıb.


DEMOKRATİK, MÜSTƏQİL QƏZET
BAKI XƏBƏR
www.baki-xeber.com
Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur

«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -
**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**
3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96
**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83
**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02


# Zakir Qaralov Ucar Prokurorluğunda qəbul keçirəcək...

**Baş prokuror Zakir Qaralov cari il aprelin 19-da saat 10:00-da Ucar rayon Prokurorluğunun inzibati binasında Ucar, Ağdaş və Zərdab rayon sakinlərinin qəbulunu keçirəcək.**



Qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Ucar rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək. Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilər.

**Məlum olduğu kimi, Azərbaycan Müdafiə Nazirliyi vətəndaşlara və KİV nümayəndələrinə müraciət edib. Müraciətdə deyilir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, ordu ilə xalq arasında əlaqələrin daha da möhkəmləndirilməsi, ictimaiyyət nümayəndələrinin hərbi hissələrdə həyata keçirilən quruculuq işləri, eləcə də valideynlərin övladlarının xidmət şəraiti ilə əyani şəkildə tanış olmaları məqsədilə Müdafiə Nazirliyi tərəfindən mütəmadi olaraq tədbirlər həyata keçirilir:**

*”Bununla da həmin hərbi hissənin bütün koordinatı düşmənin əlinə keçmiş olur”*

# Müdafiə Nazirliyinin valideynlərimizə müraciəti ilginc məqam üzərində geniş müzakirə doğurdu...

**Daşdəmir Əliyev:** *”Hansısa valideyn hərbi hissəyə aid videonu və ya fotonu sosial şəbəkədə paylaşanda düşmən bunu asanlıqla əldə edə bilir”*



"Görülən bu işlər xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Lakin son günlər müxtəlif ictimai və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin hərbi hissələrə, xüsusilə də ön xətdə yerləşən bölmələrə səfərlərindən sonra ayrı-ayrı vətəndaşlarımızın mobil telefon, videokamera və fotoaparat vasitəsilə hərbi hissələrin ərazisində çəkdikləri kadrlar sosial şəbəkələrdə yayılır, müxtəlif şərhlər paylaşılır. Beləliklə də "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanunun müvafiq tələbləri pozularaq düşmənə ordumuz barədə məlumatlar əldə etmək imkanı yaradılır.

Müdafiə Nazirliyi bildirir ki, hərbi hissələrin və ön xətt bölmələrimizin, xüsusilə də onların şəxsi heyətinin təhlükəsizliyi baxımından bu cür hallar yolverilməzdir".

Göründüyü kimi, Müdafiə Nazirliyi əhaliyə müraciət edir ki, yaradılan şəraitdən istifadə edib yayılması məqbul olmayan foto və videoları ictimailəşdirməsinlər. Bəllidir ki, burada məsuliyyət yalnız redaksiyaların üzərinə düşmür. Çünki texnologiyaların inkişaf etdiyi şəraitdə hər bir insanın sosial şəbəkələrə asan çıxışı var. Bu baxımdan da maraqlıdır, həmin materialların paylaşılmasının nə kimi təhlükəsi ola bilər?

**Hərbi ekspert, ehtiyatda olan polkovnik-leytenant Daşdəmir Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, "Dövlət sirri haqqında" Qanunda bütün məlumatlar dərəcələnib:** "Bura xüsusi, birinci, ikinci və ya xidməti zərurət üçün əhəmiyyətli sayılan kateqoriyalar aiddir. Adi vətəndaş üçün bilinəcək dərəcədə bu məsələyə aydınlıq gətirmək istəyirəm. Sadə vətəndaş üçün adi gəlsə də, elə mövzular var ki, onların ictimailəşməsinə icazə verilmir. Bura hərbi hissələrin dislokasiya sahəsi, hərbi hissəsədə xidmət edən şəxsi heyətin kimliyi və say tərkibi, şəxsi heyətin istifadə etdiyi bütün kazarma və iaşə obyektlərinin görünüşü, siyahısı aiddir. Eyni zamanda, şəxsi heyətin təlimlərdə istifadə etdiyi və hərbi hissədə saxladığı bütün növ silahların siyahısı və ya fotosu. Bunların hamısı hərbi sirr kateqoriyasına aiddir. Buna görə də MN haqlı olaraq belə bir xəbərdarlığı edir ki, vətəndaşlarımız ayıq-sayıq olsunlar. Hazırda bütün hərbi hissələr qarşısında xüsusi tablo vurulur. Orada video və foto çəkilişlərin qadağan edildiyinə dair xəbərdarlıq yazılır. Təəssüf ki, bəzi valideynlər buna əməl etmirlər. Amma gəlin görək, onlar nə kimi təhlükələr törətmiş olurlar? Məsələn, sıra meydanında duran valideyn hərbi hissə komandirinin əsgərlər və onların yanına gələn mülki şəxslərlə görüşünü çəkir. Hərbi hissə komandiri və onun ətrafındakı rəhbər heyət kadrlara düşəndə biz artıq valideyn olaraq dövlət sirrinin yayılmasında iştirak edirik. Hansısa valideyn hərbi hissəyə aid videonu və ya fotonu sosial şəbəkədə paylaşanda düşmən bunu asanlıqla əldə edə bilir. Orada olan obyektlərin kosmik əlaqələndirilməsi aparılır. Bunu etmək çox asandır. Bununla da həmin hərbi hissənin bütün koordinatı düşmənin əlinə keçmiş olur. Bir çox hallarda isə valideynlər bilmədən hansı hərbi hissənin hansı ərazidə olduğunu, hətta nömrəsini də açıq yazırlar. Bu yolverilməzdir. Çünki bununla biz şanlı ordumuzu çətin vəziyyətə salırıq. Hər bir vətəndaş bu qaydalara əməl etməyə borcludur".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, 12 siyasi partiya 2018-ci il üzrə maliyyə hesabatını Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim etməyib. Bu barədə mətbuata açıqlama verən MSK katibi Mikayıl Rəhimovun sözlərinə görə, həmin partiyaların 6-sının sədri dünyasını dəyişib:**

*”... bir möhürü, bir də sədri olan partiyaların işinə yenidən baxılmalıdır”*

# Azərbaycanda partiyaların yenidən qeydiyyat vaxtı çatdı - birinin sədri ölüb, birinin yeri bilinmir...

**Məhərrəm Zülfüqarlı:** *”Ölkədəki partiyalar yenidən qeydiyyatdan keçməlidirlər”*



"Onlardan ikisinin partiya üzvləri hesabatı təqdim etsələr də, sədrin imzası olmadığından qəbul edilməyib. Digər siyasi partiyalarla isə əlaqə saxlamaq mümkün olmayıb".

O da məlum olub ki, bu həftənin sonuna qədər proses yekunlaşacaq və bu barədə Ədliyyə Nazirliyinə məlumat veriləcək.

Qeyd edək ki, siyasi partiyaların illik maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə MSK-ya təqdim etməsi üçün müəyyənləşdirilən vaxt aprelin 1-də başa çatıb. Bu müddətə qədər hesabat təqdim etməyən partiylar barədə MSK Ədliyyə Nazirliyinə məlumat verəcək. Ümumilikdə, 2018-ci il üzrə maliyyə hesabatını təqdim edən siyasi partiyaların sayı 32-yə çatıb.

O da məlum həqiqətdir ki, Azərbaycanda 50-yə yaxın siyasi partiya qeydiyyatdan keçsə də, onların heç də hamısı partiyaya xas olan bir sıra parametrlərə malik deyi. Söhbət partiyanın üzvlərinin sayından, ictimai rəyə təsirindən, təşkilatlanma səviyyəsindən, bir sözlə, siyasi təşkilat olaraq varlığından gedir. Azərbaycanda bir çox partiya qeydiyyatdan keçsə də, praktiki olaraq, onların fəaliyyəti yoxdur. Elə partiya var ki, bir sədri var. Həmin partiyanın, ümumiyyətlə, üzvü yox səviyyəsindədir. O mənada ki, varsa belə, bəlkə də 10 nəfərdən o tərəfə keçmir. Təbii ki, belə bir təşkilatı partiya kimi qəbul etmək gülüncdür. Bütün bunları nəzərə alaraq ölkədəki partiyaların yenidən qeydiyyatdan keçirilməsinə ekspertlər necə yanaşırlar?

**Məsələyə münasibət bildirən Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) Seçki Qərargahının rəhbəri Məhərrəm Zülfüqarlının fikrincə, partiyaların yenidən qeydiyyatdan keçirilməsinə ehtiyac var:** "Nizamnamaya görə, QHT-lər iki ildən bir qeydiyyatdan keçməlidirlər. Partiyaların da, ən başlıcası, fəaliyyətləri görünməlidir. Fəaliyyət görünmürsə, ən azından, maliyyə hesabatları olmalıdır. Daha sonra nizamnaməyə uyğun olaraq işlərinə baxıb yenidən partiyaları qeydiyyatdan keçirmək olar. Bu gün ölkədə minlərlə QHT var. Hansı QHT aktivdirsə, fəaliyyət göstərirsə, verdiyi layihələr dəstəklənir. Hansılarda bu yoxdursa, o zaman kənarda qalırlar. Partiyalar da belə olmalıdır. Hesab edirəm ki, nə vaxtsa qeydiyyatdan keçib bir möhürü, bir də sədri olan partiyaların işinə yenidən baxılmalıdır. Həmin siyasi təşkilatların fəaliyyətləri yoxdursa, qeydiyyatları ləğv edilməlidir. Ancaq fəaliyyəti olan, qeydiyyatdan keçməyən partiyalar isə qeydiyyatdan keçməlidirlər. Ümumilikdə, partiyanın ya konfransı, ya da qurultayı olmalıdır. Bu zaman üzvlərin sayı görünməlidir ki, doğrudan da siyasi partiya olduqları bəlli olsun. Siyasi partiya hakimiyyət uğrunda mübarizə aparan təşkilatdır. Bu hər bir partiyanın proqramında öz əksini tapıb. Partiyanın üzvləri, fəaliyyəti yoxdursa, o zaman belə partiyanın varlığı nəyə lazımdır? Möhür cibində hansısa şəraiti gözləmək, hansısa anda mən də varam deyib ortaya çıxmaq düzgün deyil. Ona görə də ölkədəki partiyalar yenidən qeydiyyatdan keçməlidirlər. Fəaliyyəti olmayanların qeydiyyatı ləğv edilməlidir".

***Vidadi ORDAHALLI***

# Məmurlar arasında büdcə talançılığı deputatları da dilə gətirdi...

***İlqar Hüseynli:** ”Bu vəsaitin oğurlanması hər bir Azərbaycan vətəndaşının cibinə girmək anlamına gəlir”*

**Aprelin 9-da Milli Məclisin növbəti plenar iclasında Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qurumun illik hesabatını təqdim edib. Qeyd edək ki, təqdim edilən hesabatla bağlı deputatların sərt çıxışları qeydə alınıb.**

Palata sədri hesabatında deyib ki, Hesablama Palatasının apardığı yoxlamalar nəticəsində büdcə qanunvericiliyi, mühasibat uçotu, dövlət satınalmaları üzrə daha çox pozuntuların olduğu müəyyənləşib. V.Gülməmmədov bildirdi ki, nöqsanlara yol vermiş şəxslərə qarşı cəza tədbirləri görülüb. Onun sözlərinə görə, hesabat ilində audit tədbirləri nəticəsində 714 nöqsan qeydə alınıb və dövlətə dəyən ziyan büdcəyə qaytarılıb: "Son 5 ildə 69,5 milyon manat büdcəyə, 2.2 milyon manat təşkilatlara, 2,6 milyon manat isə Sosial Müdafiə Fonduna qaytarılıb. Ümumilikdə isə 72,1 milyon manat ziyan bərpa edilib".

Hesablama Palatası 9 iş üzrə hüquq-mühafizə orqanlarına müraciət edib. V.Gülməmmədov bildirdi ki, 2018-ci ildə Hesablama Palatasının nəzarət fəaliyyətini illər üzrə qruplaşdırsaq, auditlə əhatə olunmuş vəsaitin 21,1 faizi hesabat ilini, 50,7 faizi 2017-ci ili, qalan 28,2 faizi isə əvvəlki illəri əhatə edir: "Keçən ilin nəticələri də göstərdi ki, nöqsanlar əvvəlki illərdəki kimi xarakterikdir. Ən çox yol verilən nöqsanlar əsasən büdcə qanunvericiliyinin pozulması, eləcə də mühasibat uçotunun aparılması, büdcə vəsaitlərinin istifadəsi zamanı satınalmalara cəlb edilməsi və dövlət büdcəsinin investisiya xarakterli vəsaitlərinin xərclənməsində olub.

Nöqsanların baş verməsi, əsasən vəsaitlərin icrası üzrə məsul şəxslərin normativ-hüquqi aktların tələbləri ilə tam tanış olmaması və ya düzgün tətbiq edilməməsi ilə bağlıdır. İkinci bir tərəfdən, təcrübəyə əsaslanıb qeyd edim ki, daxili, həmçinin, maliyyə nəzarətlərinin bütün mərhələlərinin güclü olması nöqsan və pozuntuların sayını minimuma endirir".

Qeyd etdiyimiz kimi, hesabatın müzakirəsi çox sərt tonda davam etdirilib. Bir çox millət vəkili büdcə vəsaitlərinin israf edilməsi ilə bağlı daha sərt tədbirlərin görülməsinə çağırış edib.

Deputat Fəzail Ağamalı talanmış büdcə vəsaitlərinə diqqət çəkib: "Necə edək ki, büdcədən maliyyələşən qurumların büdcə vəsaitinin dağıdılmasına imkan verilməsin? Hələ də bu məntiqi başa düşə bilmirəm ki, ayrı-ayrı qurumların mənimsədiyi pullar hər il Palatanın illik hesabatında göstərilir, lakin bu ənənəyə son qoyulmur. Necə etmək lazımdır ki, buna imkan verilməsin? Bunun üçün Palata öz işini daha yüksək səviyyədə qurmaqla bərabər, qurumun müstəqilliyi təmin edilməlidir. Elə etmək lazımdır ki, Hesablama Palatasının işinə müdaxilə sıfra endirilsin". F.Ağamalı bildirib ki, sənəddə bir sıra qurumların rəhbərliyinin dövlət vəsaitini mənimsədiyi konkret faktlarla əksini tapıb: "Hesabatda qeyd olunur ki, Bakı şəhərində mənzil-istismar sahəsi, eləcə də Bakıda fəaliyyət göstərən yaşıllaşdırma idarələri tərəfindən mənimsənilən vəsait büdcəyə geri qaytarılıb. Lakin bu qurumların heç birinin rəhbərliyinə "gözün üstə qaşın var" deyən olmayıb". Deputat deyib ki, vəzifədən gedən qurum rəhbərləri barədə vaxtında araşdırma aparılmalıdır: "Niyə bizdə büdcə vəsaitlərini mənimsəyən qurum rəhbərləri vəzifədən çıxarıldıqdan sonra onların biznesləri, var-dövləti haqqında məlumatlara mətbuatda geniş yer ayrılır. Hesab edirəm ki, bütün bunlar zamanında araşdırılmalı, hüquq-mühafizə orqanlarına təqdim olunmalıdır. Büdcəni mənimsəyən, pul oğurlayanlar qanun qarşısında ciddi şəkildə cavab verməlidirlər".





*”Talanan vəsaitin yerinə qoyulması yalnız cinayət əməlindəki məsuliyyəti yüngülləşdirən hal kimi nəzərə alına bilər”*

Digər millət vəkili Fazil Mustafa isə hesabatda mənimsəmə faktlarının "nöqsan" olaraq göstərilməsinə etiraz edib: "Bu ifadələr uşaq bağçasında, orta məktəblərdə işlədilir. Dövlət büdcəsindən vəsait mənimsənilirsə, bu, artıq nöqsan deyil, cinayətdir. Belə yumşaq adlardan imtina etməyi bacarmalıyıq. 76 tender fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun həyata keçirilmədiyi, ancaq hansı tenderin nəticəsinin ləğv olunması barədə məlumat yoxdur".

Göründüyü kimi, millət vəkilləri büdcə vəsaitinin israf olunması ilə bağlı məsələlərin üzərindən səthi keçilməsinə etiraz edirlər. Onlar bunu cinayət əməli sayır və müvafiq hüquqi qiymətin verilməsini tələb edirlər. Millət vəkillərinin bu tələbinə ekspertlər necə baxırlar?

**Ekspert İlqar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, burada əsas söhbət dövlət büdcəsinin talanması və ona səhlənkar yanaşmadan gedir:** "Buna bir qədər geniş anlamda yanaşmaq lazımdır. Dövlət büdcəsi bir sıra daxilolmalar hesabına formalaşır. Bunlardan əsas payı vətəndaşlarımız tərəfindən ödənilən müəyyən ödənişlər təşkil edir. Biz Neft Fondunun nizamnaməsinə baxsaq görərik ki, orada da yazılır ki, toplanan vəsait xalqın rifahını yaxşılaşdırmaq üçündür. Yəni dövlət büdcəsinin həm də xalqın malı olduğunu unutmaq lazım deyil. Bu vəsaitin oğurlanması hər bir Azərbaycan vətəndaşının cibinə girmək anlamına gəlir. Buna görə də aşkarlanmış büdcə oğurluğu faktı ilə bağlı sərt tədbirlər görülməlidir. İstər məhkəmə, istərsə də prokurorluq orqanları dərhal cinayət işinin başlanmasına sərəncam verməlidirlər. Müzakirələrin gedişində bəzi deputatların irəli sürdükləri tələbləri çox məqbul sayıram. Çünki biz görürük ki, adi bir banka krediti ödəyə bilməyən vətəndaşı məhkəməyə verirlər, hətta buna görə həbs edilənlər də olub. Onda isə niyə xalqın əmlakına belə laqeyd yanaşma olmalıdır? Cinayət baş verəndə nə edirlər? Törədəni məsuliyyətə cəlb edirlər. Hüququn bu ana xətti bu məsələdə axsamamalıdır. Talanan vəsaitin yerinə qoyulması yalnız cinayət əməlindəki məsuliyyəti yüngülləşdirən hal kimi nəzərə alına bilər. Heç bir halda, həmin adamın yenə vəzifəsinə davam etməsinə əsas sayıla bilməz".

***Məhəmmədəli QƏRİBLİ***



# 162 saylı məktəb şagirdinin intiharı ilə bağlı nazirliyin daxili araşdırmaları Ceyhun Bayramova təqdim olundu

**Təhsil Nazirliyinin mətbuat xidmətindən baki-xeber.com-a daxil olan məlumata görə, aprelin 10-da Bakı şəhəri 162 nömrəli tam orta məktəbdə 4 aprel 2019-cu il tarixində baş vermiş məlum hadisənin təfərrüatlarının araşdırılması məqsədilə yaradılmış xüsusi komissiyanın üzvləri və Təhsil Nazirliyi aparatının rəhbər şəxslərinin iştirakı ilə iclas keçirilib.**

İclasda komissiya üzvlərinin məlumatları dinlənib və xidməti araşdırmanın nəticələri qərar qəbul edilmək üçün təhsil nazirinə təqdim edilib.

Xatırladaq ki, aprelin 4-də Bakı Şəhəri üzrə Təhsil İdarəsində 162 nömrəli tam orta məktəbdə baş verən hadisənin araşdırılması üçün müvafiq komissiya yaradılıb, aprelin 6-da Bakı Şəhər Səbail Rayon Prokurorluğunda AR CM-nin 125-ci maddəsi ilə cinayət işi başlanıb.

***Xəbər xidməti***

# Müsavat Partiyasında 300 min avroluq maxinasiya söhbətləri cinayət təqibinin predmeti ola bilərmi...

**Müsavat Partiyasının çox fəal üzvlərindən olan hüquq müdafiəçisi Taleh Xasməmmədov partiya sıralarından çıxarılmasına qəzetimiz vasitəsilə aydınlıq gətirib. Qəzetimizin dünənki sayında bu barədə ətraflı məlumat verilib.**




*"Hüquq-mühafizə orqanlarının hərəkətə keçməsi üçün tam əsaslar mövcuddur"*

***Mehman Muradlı:** "Burada transmilli cinayətkar şəbəkədən söhbət gedir"*

T.Xasməmmədov iddia edir ki, ona qarşı partiya rəhbərliyinin belə mövqe tutmasına səbəb Müsavatın mühacir biznesində adının hallanmasını ictimailəşdirməsi olub. Müsavat fəalı deyir ki, sosial şəbəkələrdə kifayət qədər əsaslı sənədlər yayılsa da, nədənsə, Müsavat Partiyası bununla bağlı hərəkətə keçmək istəmir. Partiya fəalı bildirib ki, saxta sənədlər əsasında mühacirətə gedənlərdən əldə olunan gəlir fantastik rəqəmlərlə ölçülür: "...Amma indi necə olursa, Avropada hər yoldan keçən birinin cibindən Müsavat üzvü olduğunu təsdiq edən vəsiqə çıxır? Belə hallarda işi çətinə düşən kimi partiya rəhbərliyi "saxtadır" deyib məlumatları təkzib edir. Bəli, doğrudan da saxtadır, çünki Müsavatın o qədər üzvü heç vaxt olmayıb, amma "saxta" olaraq onlara üzvlük vəsiqəsi verilib. Bundan əlavə, qeyd edim ki, bu cür faktiki sənədlərə istinad edilmiş ittihamlar hansı partiyaya yönəlsəydi, həmin partiya rəhbərliyi ya məhkəmə qaydasında "nüfuz" davası açardı, ya da ki, hüquq-mühafizə orqanlarına müraciət ediləcək cinayət əməli törətmiş şəxslərin məsuliyyətə cəlb olunması tələb olunardı. Amma heç bir tələb edilmir, edilməyəcək də. "Qara bazar" elə bazardır, yararlananlar və yaradanlar üçün. Təəssüf ki, mənə çatanda "arxiv arayışı" tapa bilmirdilər".

Göründüyü kimi, T.Xasməmmədov ortada kifayət qədər sübut və dəlillərin olduğunu əsas gətirərək bildirir ki, partiya bu detalların araşdırılmasında maraqlı deyil, məhz bu səbəbdən də əlaqədar qurumlara şikayət etmir. Söhbət kifayət qədər ciddi cinayət əməlindən gedir. Partiya fəalının sözlərindən belə çıxır ki, bu işdə mütəşəkkil dəstə fəaliyyət göstərir. Artıq bu cinayət həm də transmilli xarakter alıb. Çünki şəbəkənin xaricdə də üzvləri mövcuddur. Belə olan təqdirdə, Müsavatın bu məsələdə marağının olub-olmamasından asılı olmayaraq, hüquq-mühafizə orqanları bu işi araşdırmalıdırlarmı?

**Hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Müsavat Partiyasının keçmiş üzvünün kütləvi informasiya vasitələrində Müsavat Partiyası rəhbərliyini korrupsiya faktlarında ittiham etməsi son dərəcə ciddi məsələdir:** "Bu səbəbdən də hesab edirəm ki, hüquq-mühafizə orqanlarının Azərbaycan Respublikası CPM-in 46.2-ci maddəsinə istinad edərək faktla bağlı cinayət işinin başlanması üçün əllərində tam əsas var. Yaxud məlumat gedən kütləvi informasiya vasitəsi baş prokurora da müraciət edə bilər. Yəni siz xüsusi məktubla bunu cənab Zakir Qaralova ünvanlaya bilərsiniz ki, araşdırılsın. Çünki qanunvericiliyin tələbində deyilir ki, KİV-də dərc edilən və ya yayılan məlumatlar cinayət işinin başlanması üçün birbaşa əsas ola bilər. Bu halda ortada kifayət qədər ciddi ittiham var, konkret rəqəmlər səslənir. Partiya fəalı deyir ki, lazım olsa, partiya adından verilən saxta sənədləri də təqdim edə bilər. Bundan əlavə, Xasməmmədov bu işləri mütəşəkkil dəstənin gördüyünü, hətta prosesə xarici vəkillərin də qarışdığını deyirsə, deməli, törədilən cinayətin miqyası daha genişdir. Burada transmilli cinayətkar şəbəkədən söhbət gedir.

Cinayətin dairəsini əhatə edən ölkələr də bu məsələnin araşdırılmasında maraqlı olacaqlar. Çünki Avropa ölkələrində saxta mühacir biznesi ilə bağlı qaydalar daha sərtdir. Bizim hüquq-mühafizə orqanları yəqin ki, məsələnin siyasi çalar ala biləcəyindən ehtiyat edirlər. Amma burada söhbət konkret cinayət əməlindən gedir, heç bir siyasi motiv yoxdur. Hesab edirəm ki, hüquq-mühafizə orqanlarının hərəkətə keçməsi üçün tam əsaslar mövcuddur".

***Məhəmmədəli QƏRİBLİ***

# Radikallar "ReAl"ı hakimiyyətə satılmaqda suçlayır, "ReAl" isə 41 min imza ilə qanunlar hazırlayır...

**Mərkəzi Seçki Komissiyası "ReAl" siyasi hərəkatının bir sıra qanunların qəbul edilməsi məqsədilə Milli Məslisə təqdim etdiyi imzaların öyrənilməsi üçün işçi qrupu yaradıb. MSK-nın son iclasında bununla bağlı müvafiq qərar qəbul olunub.**




***Xəzər Teyyublu:** "Tam demokratik prinsiplərə, siyasi mübarizə metodlarına uyğun gələn addımdır"*

***Elşən Mustafayev:** "ReAl" belə məqbul addımlardan birini atıb"*

Məlumata görə, işçi qrupu "ReAl" siyasi hərəkatının təşəbbüs qrupu tərəfindən parlamentə təqdim edilmiş 41 min 500 imzanın həqiqiliyini və imzaların seçki yaşına çatmış Azərbaycan vətəndaşlarına aidiyyətini yoxlayacaq.

Qrupun tərkibinə Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri və Daxili İşlər Nazirliyinin mütəxəssisləri daxildir. İşçi qrupunun koordinatoru isə Mərkəzi Seçki Komissiyasının üzvü Etibar Quliyev təyin olunub. Prosesin başa çatmasından sonra işçi qrupunun rəyləri və protokollar Milli Məclisə təqdim ediləcək.

Qeyd edək ki, "ReAl" hərəkatı Bakıda mer seçkiləri, bank kreditlərini ödəyən fiziki və hüquqi şəxslərə devalvasiya nəticəsində dəymiş ziyanın kompensasiyası, həmçinin, dövlət tərəfindən ali təhsil haqlarının ödənilməsi haqqında qanunların qəbul edilməsi təşəbbüsü ilə çıxış edib.

Əslində, bu yanaşma ciddi bir siyasi mədəniyyət formasını ortaya qoyur. Hakimiyyətə qarşı radikal mövqedə dayanan bir müxalif partiya hökumət qarşısında qanunvericilik təşəbbüsü ilə çıxış edir, hakimiyyətin isə buna reaksiyası normal olur. Hətta məsələnin araşdırılması üçün müvafiq komissiya da təşkil edilir. Ancaq təəssüflər olsun ki, radikal müxalif düşərgədə təmsil olunan bəzi partiyalar mübarizə metodunu yalnız qaragüruh vasitələrdə görürlər. Ölkədə müəyyən dəyişikliyin, hakimiyyətə hansısa təklif verilməsinin yolunu yalnız mitinq keçirməkdə görürlər. Qəbul edirik ki, mitinq keçirmək də partiyaların konstitusion haqqıdır. Ancaq gəlin qəbul edək ki, özünü müxalifət sayan elə partiyalar var ki, onların heç belə təklifi hazırlamaq resursu və səriştəsi yoxdur. Maraqlıdır, hansı müxalifət partiyası belə metoddan istifadə edib və onlar "ReAl"ın bu addımına necə baxırlar?

**Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, istənilən partiya bu şəkildə öz təkliflərini hökumətə, parlamentə verə bilər:** "Mən burada qeyri-adiliyə səbəb olan nəsə görmürəm. Tam demokratik prinsiplərə, siyasi mübarizə metodlarına uyğun gələn addımdır. Biz partiya olaraq imza toplamamışıq, amma dəfələrlə bənzər məsələlərlə bağlı parlamentə, hökumətə müraciətlər ünvanlamışıq. Nazirlər Kabinetinə enerji daşıyıcılarının qiymətinin aşağı salınması, bank kreditləri ilə bağlı problemin aradan qaldırılması tələbi ilə müraciətlər göndərmişik. Onlarla belə müraciət etmişik. "ReAl" partiyasına uğur diləyirəm. Yəqin ki, onlar mübarizəni bu üsullarla aparmağı daha məqbul sayırlar".

**Azərbaycan Milli İstiqlal Partiyasının funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, "ReAl", əslində, elə bir qeyri-adi nəsə etməyib:** "Partiya kimi üzərinə düşən vəzifəni ortaya qoyub. Bilirsiniz ki, biz Azərbaycanda yaranan ilk siyasi partiyayıq. Bu uzun tarix ərzində hökumətə saysız-hesabsız təklif vermişik. Ancaq onların hansınasa müsbət reaksiya verildiyini görməmişik. Ola bilər ki, həmin təkliflərdən hansınısa hakimiyyət məqbul sayıb və həyata keçirib, amma bunu bizim təşəbbüsümüz əsasında etdiyini deməyib. Hazırda bir sıra ictimailəşən problemlərin həllini görürük. Bu ona görə baş verir ki, həm də hakimiyyət üçün onların həlli məqbuldur. Proporsional seçki sisteminin bərpası ilə bağlı kifayət qədər təklif vermişik. Bu təklifləri həm ictimailəşdirmişik, həm də rəsmi qaydada Prezident Administrasiyasına göndərmişik. Məsələn, uzun illər əvvəl biz sovet dövründən qalan əmanətlərin əhaliyə verilməsini təklif etdik. Qismən problem həll edildi. Amma bizim adımızla bağlı olmadı. Bunlar heç də ona əsas vermir ki, partiyalar belə müraciətlərə son qoysunlar. Əksinə, daha çox olunmalıdır. Bu da siyasi mübarizənin bir üsuludur. "ReAl" da belə məqbul addımlardan birini atıb"

***Məhəmmədəli QƏRİBLİ***

**Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, "Qızıl qələm" mükafatı laureatı, 60-dan artıq monoqrafiya, dərslik və dərs vəsaitinin, 400-dən çox məqalənin, 50-dən artıq sənədli televiziya filminin ssenari müəllifi Nizami Manaf oğlu Xudiyev 1949-cu il aprelin 1-də Azərbaycanın Şahbuz rayonunda anadan olmuşdur.**

# Nizami Xudiyevin şərəfli ömür yolu...

O, 1966-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filolologiya fakültəsinə daxil olmuş, təhsil illərində universitetin ictimai təşkilatlarında öz qabiliyyəti ilə fərqləndiyinə görə Nizami Gəncəvi təqaüdü adına layiq görülmüşdür. Pedaqoji universiteti fərqlənmə diplomu ilə başa vuran Nizami Xüdiyev Elmi Şuranın qərarı ilə universitetdə saxlanmış, Ə.Dəmirçizadənin rəhbər olduğu Azərbaycan dilçiliyi kafedrasına müəllim təyin edilmişdir.1978-ci ildə "Abdulla Şaiqin dili" mövzusunda filologiya üzrə fəlsəfə doktoru dissertasiyasını uğurla müdafiə etmişdir. Yazıçı və dil problemi ədəbi dil tariximizin mühüm bir sahəsini təşkil edir. Bu tədqiqatı Azərbaycan dilçiliyi tarixinin, ədəbi dil tarixinin inkişafı üçün layiqli bir əsərdir.

1970-ci ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunda müəllim, baş müəllim, dosent, professor, həmkarlar ittifaqı komitəsinin sədri, prorektor işləmişdir. N.Xudiyev 1990-cı ildə "Azərbaycan ədəbi dili tarixi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Ə.Dəmirçizadə məktəbinin davamçısı kimi Azərbaycan dilçiliyində dil tarixi, xüsusilə ədəbi dil məsələlərinin tədqiqi istiqamətində mühüm araşdırmaları dilçilikdə özünəməxsus yer tutur. Gərgin elmi araşdırmaların məhsulu olan "Azərbaycan ədəbi dilinin təşəkkülü", "Tərcümə ədəbiyyatı və ədəbi dilimiz", "Azərbaycan ədəbi dili tarixi", "Azərbaycan ədəbi dilinin sovet dövrü", "Heydər Əliyev və Azərbaycan dili", "Xalq və dövlət naminə", "Yazıçı dili və üslubu", "Radio, televiziya və ədəbi dil", "Xalqın tarixi haqqı: dilimiz, varlığımız", "Zamanın axarı ilə" (I-II), "Şəxsiyyət və zaman", "Uğurlu yolun layiqli davamçısı", "Cənubi Azərbaycanda ədəbi dilimizin dünəni və bu günü", "Qədim türk yazılı abidələrinin dili" və digər fundamental əsərləri Nizami Xudiyevin Azərbaycan elminə sanballı və əvəzolunmaz töhfəsidir. Nizami Xudiyev 14 cilddən ibarət olan "Seçilmiş əsərləri" (2012) monumental tədqiqatdır. Elm adamlarının təqdirlə qarşıladığı bu əsərlərdə xalqın tarixi ilə dili vəhdətdə araşdırılır. Alimin bu əsərləri dilimizin qədim tarixinini elmi-linqvistik və tarixi materiallar işığında obyektiv şəkildə şərh edən kompleks bir əsər kimi diqqəti cəlb edir. Onu da qeyd edək ki, Azərbaycan xalqının və dilinin soykökü məsələləri böyük elmi , ideoloji mahiyyət daşıdığından müəllif tədqiqatlarını ümumiləşdirmiş, həmin mövzunu ayrıca olaraq tədqiq etmiş və "Azərbaycan ədəbi dilinin təşəkkülü" adı ilə nəşr etdirmişdir. Bu əsərdə Azərbaycan ədəbi dilinin təşəkkül dövrü və inkişafı izlənilir. O, həmin dövrə aid faktik dil materiallarına, elmi mənbələrə əsaslanır və bütün bunları ümumiləşdirərək belə nəticəyə gəlir: 1 Ümumxalq Azərbaycan ədəbi dili III-VI əsrlərdə formalaşmışdır. 2 Azərbaycan ədəbi dili ümumxalq dilinin formalaşmasından dərhal sonra müəyyənləşməyə başlamış, IX-XI əsrlərdə Azərbaycan ədəbi dilinin təşəkkülü başa çatmışdır.

Onun qələmindən çıxan "Azərbaycan ədəbi dili tarixi" dərslik-monoqrafiyası bu sahə üzrə Azərbaycan dilçiliyi tarixində ilk mükəmməl mənbə, qiymətli tədqiqat əsəridir. Bu əsərdə Azərbaycan ədəbi dilinin təşəkkülü, formalaşması və inkişafı sistemli şəkildə araşdırılmışdır. Xüsusən, N.Xudiyev Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrünü XIII-XVII əsrlərə, ədəbi dilimizin milli dil əsasında formalaşmağa başlamasını isə XVII əsrə aid edir. Alim ədəbi dilimizin tarixini daha qədimdən başlayıb XX əsrin II yarısına qədər, yəni bütöv halda tədqiq etmişdir. N.Xudiyev öz sələflərindən fərqli dövrləşmə üzrə tədqiqat aparmışdır: 1 Təşəkkül dövrü. 2 Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrü. 3 Azərbaycan ədəbi dilinin milli dil əsasında formalaşması və inkişafı dövrü.Əsərdə Azərbaycanda qədim etnolinqvistik proseslərdən və türk mənşəli Azərbaycan dilinin təşəkkülündən bəhs edən tədqiqatlar təhlil edilərək müəyyənləşdirilir ki, türklər ən qədim zamanlardan bu ərazidə mövcud olmuşlar. Müəllif onu da qeyd edir ki, ümumxalq Azərbaycan dili formalaşdığı dövrdən ancaq türk etnosunun deyil, ənqədim zamanlardan bu ərazidə yaşayan və çox-çox sonralar gələn etnosların da ümumi ünsiyyət vasitəsi olmuşdur. N.Xudiyev erkən orta əsrlərdə ümumtürk ədəbi dilinin şifahi formasının mükəmməl şəkildə olduğunu və bu dilin müəyyən abidələrdə öz təsbitini tapdığını faktlarla təsdiq edir. "Oğuznamə"dən, M.Kaşğarinin "Divan"ından gətirdiyi mətnlər tədqiqatçının elmi axtarışlarının faktlarla təsdiqi cəhətdən əhəmiyyətlidir. N.Xudiyev digər abidələrin (Tomyugin, Gül Tiqin abidələri, "Fal kitabı") mətnlərini verir, mətnlərin dilində istifadə olunan türk sözlərini başlanmasına qədər Azərbaycan türk dilinin müxtəlif mərhələlərdə inkişafını araşdırarkən həmin dövrə aid faktik dil materiallarına, elmi mənbələrə əsaslanır və bütün bunları ümumiləşdirir.



N.Xudiyev dövrün abidəsi kimi "Kitabi-Dədə Qorqud"a müraciət edir və abidənin dilini yeni baxımdan tədqiq etmişdir. O, "Kitabi-Dədə Qorqud"un sabit fonetik quruluşunun mövcudluğunu, əvvəlcə saitlərin, sonra samitlərin işlənmə qaydalarını, sözlərdəki mövqelərini ardıcıllıqla izləyir, bu xüsusiyyətləri abidənin dili fonunda araşdıraraq müəyyənləşdirir. Müəllif abidədə işlənən 406 leksik vahidin işlənmə tezliyini, mənşəyini, qrammatik mənsubiyyətini təhlil edir. Müəllif statistik məlumatlara əsaslanaraq belə nəticəyə gəlir ki, "Kitabi-Dədə Qorqud"un leksikasının təxminən 75%-i qədim türk dilindəki sözlərlə eynidir. Tədqiqatda abidənin dilinin morfoloji və sintaktik kateqoriyaları zəngin faktlarla təhlil edilmişdir. Müəllif XIII-XIVəsrlərdə Azərbaycan dili abidələrinin çoxluğunu "ana dilinin ictimai-tarixi nüfuzunun güclənməsi" və "normativlik səviyyəsinin yüksəlməsi, funksional imkanlarının genişlənməsi" üçün əsas hesab edir. Bu dövrdə yazılmış bədii əsərlər və tərtib edilmiş lüğətlər də araşdırılır. Qeyd edir ki, XIII-XIV əsrlərdə Azərbaycan ədəbi dilinin normativliyi nə qədər yüksəkdirsə, funksional üslubu imkanları da o qədər genişdir. Azərbaycan ədəbi dilinin iki üslubu- klassik və folklor üslubunun bütün istiqamətlər üzrə xarakteristikasını əsərlərdən gətirilən nümunələrlə şərh edir . Beləliklə, N.Xudiyev abidələrin dilinin ümumi cəhətlərini, leksik və qrammatik xüsusiyyətlərini tam, sistemli şəkildə təhlil edir.Müəllif Əlinin "Qisseyi-Yusif" poemasının, Q.Bürhanəddinin tuyuğlarının dilini folklor uslubu hesab edir, "Qisseyi-Yusif" poemasından nümunələr verir və onların folklor uslubuna uyğunluğunu nümayiş etdirməyə çalışır. Ümumən klassik üslubda yazan Q.Bürhanəddin tuyuqlarından da misalları həmin istiqamətdə izah edir. Müəllif onu da qeyd edir ki, XIII-XIV əsrlərdə Əlinin "Qisseyi-Yusif"i və Q.Bürhanəddinin tuyuqları ilə təmsil olunan folklore üslubunun lüğət tərkibi klassik üslubun lüğət tərkibindən o qədər də fərqlənmir. Bununla yanaşı hər iki üsluba aid nümunələr müqayisə edilir. N.Xudiyev Azərbaycan ədəbi dili tarixində XV-XVI əsrləri XIII-XIV əsrlərin davamı kimi, onların eyni inkişaf xəttinin təzahürü hesab edir. Məlumdur ki, Şah İsmayıl Xətainin şeirə- sənətə, Azərbaycan dilinə münasibəti Azərbaycan dövlətçiliyi tarixində yeni mərhələni yaratdı. N.Xudiyev bu mərhələni xarakterizə edərək yazır ki, görkəmli hökmdar, tarixi mənbələrin verdiyi məlumata görə, hər yerdən istedadlı Azərbaycan türklərini Təbrizə yığmış, şəhəri nəhəng mədəniyyət mərkəzinə çevirmişdir. Şah İsmayılın sarayında həm klassik mədəniyyətin, həm də folklor mədəniyyətinin nümayəndələrinə eyni dərəcədə qayğı və hörmət bəslənirdi. Həmin dövrdə yaşayan sənətkarların əsərləri zəngin faktlarla təhlil edilmişdir. Bununla da XV- XVI əsrlər ədəbi dilinin əks olunduğu mənbələri tam şəkildə xarakterizə edilir və bu normalaşmada əvvəlki mərhələdən fərqli cəhətlər üzə çıxarılır. Müəllif qeyd edir ki, eyni zamanda, məhz XVI əsrdə yeni Azərbaycan dilinin normativ sistemi özünü hiss etdirir - folklor üslubunun, daha qabarıq şəkildə xalq ədəbiyyatının dil xüsusiyyətləri həmin sistemin ilk təşkilediciləri kimi fəaliyyət göstərir, milli Azərbaycan türk ədəbi dilinin bir sıra morfoloji, leksik göstəriciləri bu zaman sabitləşməyə başlayır. XV-XVI əsr Azərbaycan ədəbi dilinin klassik üslubu haqqında əsaslı təsəvvür yaradılır.

Burada klassik üslubun söz tutumu baxımmdan şeir qolu ilə nəsr qolu arasında çox da ciddi fərq görmür. N.Xudiyev bütün dövrləri xarakterizə edən zaman faktlara əsaslanır və Azərbaycan ədəbi dilinin milli əsasda formalaşmağa başlamasını XVII əsrə aid edir. Müəllifin fikrinə görə, XVII əsrdən başlanan bu dövrlərdə Azərbaycan ədəbi dili milli əsaslar üzərində inkişaf etmiş və zənginkamil dil səviyyəsinə yüksəlmişdir. Eyni zamanda XVII-XVIII əsrlərin ədəbi dilinin fonetik, leksik, qrammatik normalarını təhlil edir, ədəbi dilin üslublarından bədii, elmi, rəsmi üslubları xarakterizə edir. Bədii üslubun əsas xüsusiyyətlərini ümumi halda təhlildən keçirir. Azərbaycan ədəbi dilinin inkişafı, onun ictimai təsirinin çoxalması baxımından keçmiş sovet dövrü, ədəbi dilin mərhələləri, ədəbi-bədii üslubla yanaşı, ədəbi dilin publisistik, elmi və epistolyar üslubları cəmiyyətin inkişafı ilə əlaqədar bu dövrdə daha da aparıcı mövqeyə malik olması müxtəlif dil faktlarının ümumiləşdirməklə təhlil edilir. Beləliklə, N.Xudiyev Azərbaycan ədəbi dilinin ən qədim dövrlərdən XX əsrin 20-30-cu illərindən sonrakı dövrünə qədər keçdiyi tarixi inkişaf yolu zəngin elmi mənbələr, faktik dil materialları ilə tədqiq etmişdir.

Professor N.Xudiyevin Azərbaycan ədəbi dilinin tarixinə həsr etdiyi əsərlərdən biri də "Xalqın tarixi haqqı: dilimiz, varlığımız" əsəridir. Bu kitabda milli ədəbi dilimizin tarixi ilə bağlı əvvəlki əsərlərindəki fakt və qənaətləri, problemləri daha da inkişaf etdirmiş və dərinləşdirmişdir. N.Xudiyevin "Qədim türk yazılı abidələrinin dili" dərslik-monoqrafiyası da böyük elmi əhəmiyyət daşıyır. Qədim türk yazılı abidələri türk xalqlarının milli düşüncə tərzini, mənəvi dünyasını və zəngin dil tarixini əks etdirən möhtəşəm sənət nümunələridir.

*(Ardı 7-ci səh.)*

*(Əvvəli 6-cı səh.)*

Azərbaycan və digər türk dillərinin tarixi inkişaf istiqamətləri, fonetik, leksik və qrammatik kateqoriyaların yaranması və formalaşması bu yazılar əsasında müəyyənləşir. Buna görə də qədim türk abidələrinin öyrənilməsi, türkün tarixinin, mədəniyyətinin, yazısının öyrənilməsi istiqamətində mühüm addımdır. Alimin uzun illər tədris prosesində əldə etdiyi təcrübələr əsasında dərsliyə qədim türklərin istifadə etdiyi əlifba sistemlərindən nümunələr, fənnə aid sual və tapşırıqlar və geniş həcmli qədim türk lüğəti daxil edilmişdir.

Nizami Xudiyevin elmi yaradıcılığı zəngin və çoxşaxəlidir. Onun tədqiqatları mövzu və istiqamətinə görə Azərbaycan ədəbi dil tarixi , nitq mədəniyyəti, tərcüməşünaslıq, bədii əsərlərin dili, üslubiyyat ,türkoloji dilcilik problemləri ilə bağlıdır. N.Xudiyevin "Heydər Əliyev və Azərbaycan dili" monoqrafiyasında mədəniyyətimiz, dövlətçiliyimiz və dünya siyasəti tarixində fenomen şəxsiyyətolaraq əbədi yaşayan ulu öndər Heydər Əliyevin apardığı dil siyasəti, dilçilik görüşləri araşdırılmışdır. Eyni zamanda alim dövrümüzün ictimai-siyasi natiqlik məktəbi sayılan ümummilli liderin mükəmməl natiq obrazını yaratmışdır. Kitabda dilimizin funksional məsələlərinin inkişafında və onun tədrisi məsələlərinin yaxşılaşdırılması istiqamətində ulu öndərin həyata keçirdiyi tədbirlər geniş şəkildə işıqlandırılmışdır. Kitabın böyük bir hissəsi ulu öndərin nitq mədəniyyəti və natiqlik məharətinin tədqiqinə həsr olunmuşdur. Bununla yanaşı alim Cənubi Azərbaycanda ədəbi dil məsələləri, radio və televiziyanın dili, mətbuatın dili, nitq mədəniyyəti ilə bağlı sanballı elmi əsərlərin müəllifidir. Azərbaycan mədəniyyəti tarixində Cavad Heyət möcüzəsi mövzuları da bu görkəmli alimin yaradıcılığında özünəməxsus yer tutur. Onun bir sıra kitab və məqaləleri xarici ölkələrdə (İran, Türkiyə, Rusiya, Almaniya, İraq, İsveçrə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və s.) nəşr edilmişdir. Nizami Xudiyev türkoloq-alim kimi respublikamızda və dünyanın bir çox ölkələrində, həmçinin Moskva, Nalçik, Bişkek, Ufa, Aşqabad, Daşkənd, Gülüstan, Alma-Ata, Ankara, İstanbul, Əskişəhər, İzmir, Adana, Konya və başqa şəhərlərdə keçirilən nüfuzlu türkoloji tədbirlərin - qurultay, beynəlxalq simpozium və elmi konfransların nümayəndəsi olmuş, bu mötəbər toplantılarda elmi məruzələrlə çıxış etmişdir. Yaradıcı, zəhmətkeş pedaqoq, elm adamı olan Nizami Xudiyev həm də ictimai xadimdir. 1994-1996-cı illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir. Birinci , ikinci və üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur.1996-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin sədri, 2005-2006-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifələrində çalışmışdır. Təxminən əlli ilə yaxındır elm və maarif yolunda fəaliyyət göstərən Nizami müəllim bu gün də öz müəllimlik estafetini layiqli şəkildə davam etdirərək ADPU-nun "Azərbaycan dilçiliyi" kafedrasının müdiri kimi gənc kadrların yetişməsində əzmlə çalışır. Professor Nizami Xudiyev müəllimliyi ilə fəxr edən pedaqoqdur, indi də dərs deyir, gənc nəslə müəllimlik sənətinin sirrlərini öyrədir.Müstəqil Azərbaycan ölkəsinin elmi və pedaqoji fikrinin inkişafında Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, professor Nizami Xudiyevin mühüm rolu var. Dünyanın bir çox ölkələrində dil qurultaylarında, konfrans, simpozium və konqreslərdə dilçiliyin aktual problemlərinə dair dərin məzmunlu məruzələrlə çıxışlar etmişdir. Ömrü boyu səmərəli axtarışlar aparan, görkəmli ictimai xadim, elm təşkilatçısı N. Xudiyevin əməyi yüksək qiymətləndirilmişdir. O, 2004-cü ildə Ankara şəhərində keçirilən Türk dili qurultayında "Türk dilinə xidmət" ödülü ilə mükafatlandırılmışdır. Alim Azərbaycan Respublikasının ictimai-siyasi və mədəni həyatında fəal iştirakına görə 2009-cu ildə "Şöhrət" ordeni, 2012-ci ildə "Azərbaycan Respublikası Qabaqcıl təhsil işçisi" döş nişanı, 2013-cü ildə "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" Qızıl medalı ilə təltif edilmişdir. O, Azərbaycan Milli Elmlər Akademiyası və Bakı Dövlət Universiteti nəzdində alimlik dərəcəsi almaq üçün filologiya sahəsində dissertasiyaların müdafiəsini keçirən birləşmiş ixtisaslaşmış şurasının, Azərbaycan, Ziyalılar Cəmiyyəti idarə Heyətinin (1998), Jurnalistlər (1998) və Yazıçılar Birliyinin (1999) üzvüdür. Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Nizami Xudiyev Prezidentin fərdi təqaüdünə layiq görülmüşdür.Görkəmli pedaqoq-alim və ictimai xadim Nizami Xudiyevin pedaqoji və elmi əsərləri, yazdığı sanballı əsərlər, yetişdirdiyi kadrlar fədakar alim fəaliyyətinin parlaq nümunəsidir.

Öz qüruru, təvazökarlığı, səmimiliyi ilə seçilən, əsl alim və gözəl insan adını şərəflə daşıyan bu zəhmətkeş alimə ömrünün bu barlı çağında can sağlığı, uzun ömür, yeni elmi uğurlar arzulayır və onun 70 illik şərəf yolunu ürəkdən təbrik edirik. Bu zirvələrə gedən yolların daha uğurlu olsun, Nizami müəllim!

***Sayalı SADIQOVA***
***Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini, professor***

**Ermənilərin iç üzü dünya qarşında sürətlə açılır. Artıq beynəlxalq ictimaiyyət bu toplumun işğalçı bir xalq olduğunu anlayır və müxtəlif formalarda bunu etiraf edirlər. Bu gün Rusiyanın özündə də həm deputatlar, həm tanınmış elm, mədəniyyət, incəsənət xadimləri Ermənistanın işğalçı bir dövlət olduğunu və Azərbaycan torpaqlarını işğal etdiyini vurğulayırlar.**



# Ermənistanın Azərbaycana ərazi iddialarına qarşı Rusiya mədəniyyət xadimlərindən daha bir həmlə...

***Vüqar Rəhimzadə:** "Rusiyanın belə bir məşhur insanının bu cür ifadə işlətməsi, həqiqəti dilə gətirməsi reallığı əks etdirir"*

***Vaqif Abışov:** "... Ermənistanı işğalçı dövlət olaraq tanımasının bir göstəricisidir"*

Tanınmış rusiyalı kinorejissor Vladimir Menşov Bakıda keçirlən yaradıcılıq gecəsindəki çıxışında qeyd edib ki, ermənilər Azərbaycan torpaqlarını işğal ediblər. "Düşünürəm ki, ermənilər Qarabağın onların torpağı olduğunu deməklə çox böyük tarixi səhvə yol veriblər" - deyə bildirən V.Menşov tamaşaçılardan birinin ona ünvanladığı "Qarabağ haqqında film sifarişi alsanız, necə çəkərsiniz" sualına cavab olaraq bildirib ki, o, problemlə yaxından tanış deyil: "Baş verənlərin bu qədər qəddarcasına olduğunu bura gələndən sonra öyrəndim. Mən bilirəm ki, heç kim heç kimi bağışlamır. Torpaq uğrunda nifrət qazanmağa dəyməz. Ermənilər tarixi səhvə yol veriblər".

Rusiyalı kinorejissorun etirafı o deməkdirmi ki, artıq Rusiyanın daxilində erməni işğalına qarşı etirazlar formalaşıb?

Ekspertlər qeyd edirlər ki, Rusiyanın mədəniyyət xadimləri, incəsənət adamları ermənilərin Azərbaycana qarşı həyata keçirdikləri işğalçılıq siyasətinə qarşı etiraz bildirirlər.

**"İki sahil" qəzetinin baş redaktoru, tanınmış ictimai xadim Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, artıq nəinki Rusiya, hətta başqa ölkələrdə də mədəniyyət, incəsənət xadimləri ermənilərin işğalçılıq siyasətini pisləyirlər.** "Təbii ki, artıq reallıq görünür və hər şey göz önündədir. Ermənilərin yaydıqları yalan, iftira dolu informasiyaları, bu istiqamətdə gedən proseslər artıq iflasa məhkum olub. Düşünürəm ki, yalnız Rusiya ictimaiyyəti deyil, elə erməni ictimaiyyətinin özü də, qara camaatı da Ermənistanda siyasi hakimiyyətdə olanların əməllərindən beziblər. Bəli, dünya ictimaiyyəti artıq reallığı görür. Rusiyanın belə tanınmış bir sənətkarının ermənilərin tarixi səhvə yol verməsi ilə bağlı fikir səsləndirməsi bir daha reallığı ortaya qoyur ki, artıq nəinki bu ölkənin ictimaiyyəti də ermənilərin kim olduqlarını, Azərbaycan torpaqlarına qarşı işğalçılıq siyasəti həyata keçirdiklərini, tarix boyu terror təşkilatları ilə əlaqələrinin, bağlılıqlarının olduğunu yaxşı bilirlər. Onlar Rusiya ilə də bağlı müxtəlif təhdid dolu hadisələrin şahidi olublar. Ona görə də Rusiyanın belə bir məşhur insanının bu cür ifadə işlətməsi, həqiqəti dilə gətirməsi reallığı əks etdirir, o tamamilə reallıqdan çıxış edərək bu fikri söyləyib. Fikrimcə, bu fikrin səsləndirilməsi kimi hallar vacib məsələlərdən biridir ki, ümumiyyətlə, regionda bu problemin həll olunmasına öz müsbət təsirini göstərə bilər" - deyə V.Rəhimzadə bildirdi.





**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi Vaqif Abışovun fikrincə də V.Menşov bu açıqlamanı verərkən, bütövlükdə, Qarabağ münaqişəsi ilə bağlı Rusiya ictimaiyyətində formalaşan fikri, rəyi qeyd edib.** "V.Menşovdan əvvəl də bu fikri səsləndirən mədəniyyət, incəsənət, elm, ədəbiyyat xadimləri olub. Rusiya mətbuatına nəzər salsanız görərsiniz ki, 2016, 2017, 2018-ci illərdə bu ölkənin KİV-ində Rusiyanın bir sıra tanınmış elm, mədəniyyət xadimləri, tarixçilər, ədəbiyyatçılar dəfələrlə Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan tərəfindən işğal olunduğunu bəyan ediblər. Bu torpaqların Azərbaycanın tarixi əraziləri olduğunu yazıblar. Hətta onu da bildiriblər ki, Azərbaycana məxsus bu torpaqları Rusiya alıb ermənilərə verib. Rusiya ictimaiyyəti yaxşı bilir ki, o torpaqlar ermənilərə məxsus deyil. Bu baxımdan, həm sadə rusiyalılar, həm tanınmışlar, həm də dövlət adamlarının belə bir bəyanat verməsi təbiidir. Rusiya tarixçilərinin özləri dəfələrlə bu barədə yazıblar. Görkəmli Rusiya tarixçisi Oleq Kuznetsov özü Dağlıq Qarabağ məsələsi ilə bağlı bir neçə kitab yazıb, o bu kitablarında ermənilərin işğalçılıq siyasətini kəskin tənqid edib.

Rusiyalı kinorejissorun ermənilərin Azərbaycan torpaqlarını işğal etməsi ilə bağlı fikr səsləndirməsi və onların tarixi səhvə yol verdiklərini bəyan etməsi, birmənalı olaraq, Rusiyanın mədəniyyət, incəsənət, elm, ədəbiyyat adamlarının Ermənistanı işğalçı dövlət olaraq tanımasının bir göstəricisidir. Bu gün Rusiya ictimaiyyətində ermənilərin Azərbaycana qarşı həyata keçirdikləri işğalçılıq siyasətinə bir etiraz formalaşıb" - deyə V.Abışov vurğuladı.

***İradə SARIYEVA***

# ABŞ-la İran müharibənin bir addımlığında - min kilometr sərhəd boyunca ABŞ əsgərlərinin "ovu" başlayır

**ABŞ-ın daxilində və beynəlxalq aləmdə etirazlara baxmayaraq, prezident Donald Tramp rəsmən İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) terrorçu təşkilat olduğunu bəyan etdi. Rəsmi Vaşinqtonun bu addımına Tehranda dərhal reaksiya verilib. İranın Milli Təhlükəsizlik üzrə Ali Şurası ABŞ ordusunu terrorçu təşkilat, əsgərlərini isə terrorçu elan edib.**



İranın Ali Milli Təhlükəsizlik ŞurasıYaxın Şərqdə ABŞ-ın Mərkəzi Qüvvələr Komandanlığını (CENTCOM) terror təşkilatları siyahısına daxil edib. Ekspertlər isə bütün bunları təhlükəli hal sayır. Ən azı o baxımdan ki, baş verənlər ABŞ və İran arasında barəsində çoxdan söhbətlər gəzən savaşın başlanmasını tezləşdirə bilər. Belə savaşın olmasını isə region ölkələri, o cümlədən də Azərbaycan qətiyyən istəmir. Çünki ABŞ-İran savaşı bütün regiona dağıdıcı təsir göstərmək iqtidarındadır.

ABŞ-ın "The Hill " qəzeti də yazır ki, olaylar həqiqətən də çox dağıdıcı nəticələrə gətirib çıxara bilər: "Məhz bu səbəbdən, məlumatlara görə, ABŞ Müdafiə Nazirliyi və Mərkəzi Kəşfiyyat İdarəsi SEPAH-ın terrorçu təşkilatlar siyahısına daxil edilməsinə qarşı çıxıb və bunda təəccüblü heç nə yoxdur, çünki Bağdadda fəaliyyət göstərən Amerika hərbçi və zabitləri zərbə altında qala bilər. ABŞ Müdafiə Nazirliyində 2007-ci ildən SEPAH-ın terrorçu təşkilatlar siyahısına daxil edilməsi ideyasına qarşı direnirlər. ABŞ qərargah rəislərinin Birləşmiş Komitəsində bildiriblər ki, Birləşmiş Ştatlar onların hökumətlərinin sanksiyalaşdırdığı əməliyyatlara qatılan hərbi zabitlərin terrorçular siyahısına daxil edilməsindən həmişə ciddi-cəhdlə yayınıblar ki, Amerika hərbçilərinə münasibətdə oxşar cavab tədbirlərindən qaçsınlar. Xarici dövlət də cavabında gizli hərəkət edərək, üsyançılara hərbi yardım çatdıran Amerika xüsusi təyinatlısının zabitlərini terrorçular siyahısına daxil edə bilər.

Bundan qabaqakı dəfə cinayətkar təşkilatlar siyahısına daxil edilən suveren dövlətin hərbi birləşməsi "Vaffen-SS" qoşunları olub. Nasist Almaniyasının bu qurumunu hərbi cinayətlər etməkdə və insanlığa qarşı cinayətdə ittiham edirlər. Doğrudanmı, SEPAH-a komandanlıq edən general-mayor Məhəmməd Əli Cəfəri reyxsfürer Henrix Himmler qədər qorxuludur? Əlbəttə, yox. SEPAH-ın terrorçu təşkilatlar siyahısına daxil edilməsi ciddi nəticələrə apara bilər. İran təhlükəsizlik qurumlarının əlinə düşən Amerika girovlarının sayı artacaq. O biri yandan, SEPAH öz iqtisadi imkanlarını genişləndirə bilər".

Qeyd edək ki, artıq ABŞ və İran arasında gərginliyin daha da artması müşahidə edilir. SEPAH-ın baş komandanı Məhəmməd Əli Cəfəri bildirib ki, baş verənlər fonunda onlar hərbi potensiallarını daha da artıracaqlar. O, Tramp administrasiyasının SEPAH-ı terror təşkilatları siyahısına salması qərarını olduqca gülünc addım adlandırıb: "Bu strateji xətadır. İran ətrafında min kilometr radiusda olan amerikalı əsgərlər dərhal ərazini tərk etməlidir. Artıq ABŞ-ın Qərbi Asiyadakı ordusu və hərbi qüvvələrinin dincliyi, sabitliyi pozulacaq, onlar artıq təhlükəsiz şəraitdə qala bilməyəcəklər".

ABŞ-ın dövlət katibi Mayk Pompeo isə ölkəsinin hərbçilərinə hücumun İran üçün dəhşətli səhv olacağını açıqlayıb: "Biz belə olacağı təqdirdə layiqincə cavab verəcəyik. İnqilab Keşikçiləri zəifləmədən Yaxın Şərqdə sülh və sabitliyi təmin etmək mümkün deyil". Pompeo bir daha ölkəsinin İnqilab Keşikçilərini xarici terror təşkilatları siyahısına salması qərarını müdafiə edib: "İran İnqilab Keşikçiləri terrorçu təşkilatdır və biz bunu müəyyən etmiş olduq. Dünyanın hər tərəfində olan hər bir Amerika əsgərini qoruduğumuzdan əmin olmaq üçün hər zaman əlimizdən gələni edirik. İran hakimiyyəti Yaxın Şərqdə ABŞ-a hərbi hücuma qərar verərsə, bu, nəticələrsiz qalmayacaq". İnqilab Keşikçilərinin 600-dən çox amerikalı əsgəri öldürdüyünü xatırladan baş katib ABŞ-ın bu qərarının bölgədəki əsgərlərlə diplomatların işini çətinləşdirəcəyi məsələsinə pozitiv münasibət bildirib: "Artırılmış təzyiqin daha çox amerikalının həyatını xilas edəcəyinə və bütün Yaxın Şərqdə daha stabil, daha sülhpərvər və daha təhlükəsiz bir şərait yaradacağına güvənirik". Pompeo İnqilab Keşikçilərinin kənarda fəaliyyət göstərən qolu olan Qüds Qüvvələrinin komandiri Qasım Süleymanini də açıq şəkildə "terrorçu" adlandırıb.

ABŞ-ın Beynəlxalq Siyasət Mərkəzinin baş elmi əməkdaşı Metyu Hou isə bildirir ki, Vaşinqtonun SEPAH-ı terror təşkilatları siyahısına daxil etməsi qərarı İrana qarşı istənilən addımlara haqq qazandırmaq imkanı yaradacaq. Onun sözlərinə görə, bu plan ABŞ-a İrana qarşı müharibənin başladılması üçün bəhanə verəcək: "Bu taktika Amerikada tarixi boyunca daim izlənilib. Hədəfə çatmaq, bu hədəfi şeytanlaşdırmaq lazımdır. Bu, sadə və effektiv taktikadır. Müharibəyə haqq qazandırmaq üçün amerikalıları qəzəbləndirmək, onları İraqdan olduğu kimi, İrandan da qorxmağa məcbur etmək lazımdır. Pentaqonun bir müddət əvvəl 608 amerikalının İraq müharibəsində iranlılar tərəfindən öldürülməsi xəbərini yayması təsadüfi deyil. Görünür, ABŞ yenidən müharibə və ya İranda rejim dəyişikliyi istəyir. Ona görə də növbəti qisas üçün arqumentlərini sıralayır".

***Nahid SALAYEV***

# Ermənilər saxta genosidi ABŞ-da tanıtmaq səylərinin məzmununda dəyişiklik etdilər...

**ABŞ Konqresinin Nümayəndələr Palatasının demokrat üzvü Adam Şiff və respublikaçı Qas Biliraks "erməni soyqırımı"nın Amerika rəhbərliyi səviyyəsində rəsmən tanınması üçün yeni qətnamə layihəsi təqdim ediblər. Bu barədə Amerika Ermənilər Milli Komitəsi məlumat yayıb.**



*"ABŞ Konqresində yenidən sözügedən məsələnin bir qədər fərqli formada gündəmə gəlməsi bununla bağlıdır"*

## ***Elşən Manafov:*** *"Qərb dövlətləri qondarma soyqırım amilindən Türkiyəyə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edirlər"*

Məlumatda qeyd olunur ki, Şiff və Biliraksın müəllifi olduqları yeni qətnaməni 70 konqresmen dəstəkləyib.

Sənəddə tarixi faktlara zidd olaraq ortaya atılan saxta erməni soyqırımının tanınması məqsədilə konkret tədbirlərin görülməsi və Vaşinqtonun siyasətinə yeni müddəaların salınması təklif olunub. Ermənipərəst konqresmenlər, həmçinin, ABŞ hakimiyyətini uydurma soyqırımı rəsmən tanımağa və onun "tarixi"nin tədris olunmasına çağırıblar. Müəlliflər, ABŞ səlahiyyətlilərini "erməni soyqırımı"nı rəsmən tanımağa çağırmaqla bərabər, bunu inkar etmək cəhdlərinin qarşısını almağa çağırırlar. Həyasızlığın dərəcəsinə bax ki, qondarma soyqırımla bağlı qətnamə layihəsinə yeni tələblər daxil ediblər. İndiyə qədər saxta erməni soyqırımının qəbul olunmasına nail ola bilməyən erməni lobbisi müxtəlif yeni əlavələri ora daxil etmək istəyir. Onların bu istiqamətdə bir sıra səyləri fiaskoya uğrasa da, hər dəfə sözügedən məsələni gündəmdə saxlamağa çalışırlar. Müxtəlif əlavəlməz tələblərlə çıxış edirlər.

Məlum məsələdir ki, ermənilərin qondarma soyqırım iddiaları həqiqətdən tamamilə uzaqdır. Belə cəfəng iddialar Türkiyənin Ermənistana münasibətini yumşaltmağa yönəlib. Yəni sərhədləri açmağa məcbur etmək, habelə qardaş ölkənin nüfuzuna xələl gətirmək, onun Avropa İttifaqına gedən yolunu bağlamaq məqsədini güdür. Bütün bu deyilənlərlə yanaşı, ermənipərəst konqresmenlərin qondarma soyqırımla bağlı yeni tələblərlə çıxış etməsini ekspertlər necə dəyərləndirirlər?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Elşən Manafovun sözlərinə görə, qondarma erməni soyqırımının hər il müxtəlif vasitələrlə gündəmə gətirilməsi təsadüfi deyil:** "Bütün bunlar ermənilərin "Böyük Ermənistan" layihəsinin tərkib hissəsidir. Dünyada müəyyən beynəlxalq güclərin buna bu və ya digər şəkildə siyasi, maliyyə dəstəyi verməsi Türkiyəni zəifləmək məqsədi daşıyır. Etiraf etmək lazımdır ki, qondarma soyqırım hadisələrinin tədrisinin vacibliyi və bu hadisələrin inkar edilməsinin yolverilməzliyi ilə bağlı qanun layihəsi illər əvvəl Fransa Senatında müzakirəyə çıxarıldı. O zaman bununla bağlı Fransada bənzər qanun da qəbul olundu. Türkiyənin bu məsələyə son dərəcə ciddi müdaxiləsindən sonra Fransa Ali Məhkəməsi bunun Fransa qanunvericiliyinə zidd olduğunu bəyan etdi. Bununla belə, Fransa Senatı, Avropa dövlətlərinin əksər parlamentləri 100 il əvvəl baş verən hadisələrə məhz "soyqırım" kontekstindən yanaşırlar. Belə çıxır ki, guya Osmanlı imperiyası etnik erməniləri hədəfə alıb. Ancaq Birinci Dünya Müharibəsini araşdıran, obyektiv mövqe sərgiləyən bir sıra Qərb tarixçiləri bəyan edirlər ki, baş verən hadisələrin səbəbkarı ermənilərdir. Osmanlı imperiyası öz əhalisinin təhlükəsizliyini təmin etmək üçün bəzi sərt tədbirlər görüb. Erməni əhalisinin köçürülməsinə qərar verilib. Bu zaman bəzi itkilər olub, amma ermənilərin iddia etdikləri kimi, bu rəqəm 1 milyon 500 min nəfər deyil. Bu tamamilə cəfəng iddiadır. Qərb dövlətləri bütün bu gerçəklikləri bilə-bilə, qondarma soyqırım amilindən Türkiyəyə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə edirlər. ABŞ Konqresində yenidən sözügedən məsələnin bir qədər fərqli formada gündəmə gəlməsi bununla bağlıdır. O üzdən, ermənilərdən bir vasitə kimi istifadə edirlər. Qərbdəki müəyyən dairələr bununla Türkiyəni cəzalandırmaq, bu ölkənin gerçəkdən bir Avropa dövləti olmasının qarşısını almaq istəyirlər. Bu minvalla, Türkiyəni Avropa İttifaqına yaxın buraxmaq istəmirlər.

Fikrimcə, bu dəfə də ABŞ Prezidenti ənənəvi çıxışında soyqırım ifadəsini işlətməyəcək. Sadəcə, bu məsələni gündəliyə gətirməklə Türkiyəyə təzyiq edirlər".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Öz deputatları ilə qapalı görüşdə "Əliyevlə görüş necə keçdi" sualı Paşinyanı əsəbləşdirdi...

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində işğalçı Ermənistanda hələ də qeyri-müəyyən bir vəziyyətin hökm sürməsi müşahidə edilməkdədir. Belə görünür ki, İrəvan hələ də belə vəziyyət yaratmaqla məsələnin çözümünü dalana dirəməyə, status-kvonu uzatmağa çalışır.**

Amma Azərbaycan bununla barışmayaraq, Ermənistanın artıq müvafiq addımlar atmasını tələb edir və bu mövqeyini konfliktin çözümündə vasitəçilik edən ölkələrin də diqqətinə çatdırıb.

Yaranmış durumu şərh edən ekspertlər, əslində belə bir mövqe sərgiləməklə İrəvanın sadəcə yeni Qarabağ savaşını körüklədiyini qeyd edirlər. Rusiyalı hərbi və siyasi analitik İqor Korotçenko da bildirir ki, Ermənistan Qarabağ məsələsində özünü getdikcə daha çətin vəziyyətə salır: "Müharibə ehtimalı yüksəkdir, bu obyektiv vəziyyətdir. Çünki münaqişə var və o həll edilməyib. Yeni müharibə mümkündür". Ekspertin sözlərinə görə, hazırda bu vəziyyətin nə qədər davam edəcəyini, bunun müharibə və ya sülh olduğunu demək çətindir: "Müharibə ehtimalı, dediyim kimi yüksəkdir, yeni müharibə mümkündür. Yəni tərəflər arasında razılaşma yoxdursa, o zaman müharibənin yenidən başlaması ehtimalı hədsiz dərəcədə yüksəkdir".

Digər hərbi ekspert Mixail Jiroxov da Qarabağda mümkün yeni savaşın olacağını proqnozlaşdırılanlar sırasında yer alır. O buna həm də geosiyasi amillərin təsir göstərdiyini vurğulayır: "Suriya münaqişəsinin həllinin mümkünsüzlüyü və Liviyadakı kəskinləşmə ilə bağlı olan açıq geosiyasi böhran fonunda Cənubi Qafqazda bu dəfə daha bir "qaynar nöqtə" aktivləşməyə başlayır. Təbii ki, biz ən azı 1988-ci ildən bəri davam edən Dağlıq Qarabağ münaqişəsindən danışırıq". Ekspert Ermənistanın müdafiə naziri David Tonoyan tərəfindən səsləndirilən ən son təcavüzkar bəyanatları şərh edərkən bildirib ki, hazırda Ermənistan vəziyyəti gərginləşdirir və bu vəziyyət olduqca anlaşılmazdır: "Çünki son illərdə Azərbaycan hərbi potensialını əhəmiyyətli dərəcədə artıra bilib. Bakının zirvədə olduğu dönəmdə silah idxalına illik 1.4 milyard dollar, ümumilikdə isə müdafiəyə ÜDM-in 6.2 faizi ayrılırdı, bu isə bütövlükdə erməni büdcəsi üçün ümumiyyətlə əlçatmaz idi. Bundan əlavə, son illərdə bir neçə dəfə Azərbaycanın müdafiə büdcəsi Ermənistanın bütün büdcəsindən çox olub. Təbii ki, bu vəziyyətdə savaşın hansı nəticə ilə yekunlaşacağını proqnozlaşdırmaq elə də çətin deyil. Ermənistan rəhbərliyinin bu reallığı nəzərə almaması isə, sadəcə, təəccüb doğurur". Ekspert artan silahlanma fonunda Qarabağda real toqquşmanın olacağını vurğulayıb: "Ermənistanın hazırkı təcavüzkar bəyanatları iki şeyə əsaslanır - Rusiyanın qeyd-şərtsiz dəstəyinə və İranın regional supergüc səviyyəsinə çatmaq cəhdlərinə. Ermənistanın baş naziri Nikol Paşinyanın ilk xarici səfərlərindən birini Tehrana etməsi də təəccüblü deyil. Mənim fikrimcə, erməni hərbçilərinin hesablamaları müəyyən bir sıçrayışdan sonra Rusiyanın təzyiqi ilə Bakının mövcud statusun möhkəmləndirilməsi ətrafında danışıqlar aparmağa məcbur edilməsinə yönəlib. Erməni generallarının bu barədə necə qərar verəcəyi tam aydın deyil, lakin yaxın dövr ərzində bu istiqamətdə real kəskinləşmə görəcəyimizin ehtimalı böyükdür. Amma çətin ki, bu dəfə Azərbaycanı kimsə saxlaya bilsin. Bura Rusiya da daxildir".

Xatırladaq ki, rəsmi Bakı savaşın istənilən an başlana biləcəyini açıq şəkildə bəyan edir. Elə bu günlərdə müdafiə naziri, general-polkovnik Zakir Həsənov keçirdiyi xidməti müşavirədə işğalçı ölkəyə ciddi xəbərdarlıq edib. Nazir bütün səviyyələrdən olan komandir və rəis heyətinə düşmənin fəaliyyətinin daim müşahidə edilməsi, hərəkətinin nəzarətdə saxlanması, onun törədə biləcəyi istənilən təxribata qətiyyətli cavab verməyi və hər an aktiv döyüş əməliyyatlarının başlanmasına hazır olmaları barədə konkret göstərişlər verib. Ehtiyatda olan polkovnik Şair Ramaldanov bu fonda vurğulayır ki, artıq hər an cəbhədə vəziyyət gərginləşə və yeni döyüşlər başlaya bilər: "Hər an aktiv fazaya keçmək durumundayıq. Bununla bağlı dəfələrlə Azərbaycan Prezidenti İlham Əliyev xəbərdarlıq edib. Azərbaycanın səbri sonsuz deyil. Azərbaycan görsə ki, Ermənistan vəziyyəti anlamaq istəmir, konstruktiv mövqe sərgiləmir, o zaman başqa seçim qalmayacaq. Unutmaq olmaz ki, Azərbaycan ordusu öz torpaqlarını güc yolu ilə azad etməyə qadirdir". Ş.Ramaldanov qeyd edib ki, Ermənistan danışıqlarda konstruktiv mövqe tutmaq imkanında deyil: "Çünki bu dövlət heç vaxt müstəqil olmayıb. Ermənistanda rəhbərliyə kimin gəlməsindən asılı olmayaraq, onların danışıqlarda yalnız cümlə quruluşu dəyişə, hansısa başqa fikirlər söyləyə bilərlər. Bunun təsdiqi olaraq bircə konstruktiv fikrin ortaya çıxmamasını göstərə bilərik. Ermənistanda hər kəs başa düşür ki, Azərbaycanla gah nala, gah mıxa vurmaqla danışmaq olmaz. Gec-tez Azərbaycanın səbri tükənə bilər. Artıq faciə başlasa, onun qarşısını almaq çox çətin olacaq". Polkovnik hesab edir ki, Ermənistan tərəfi Vyana görüşündən sonra, heç olmasa, danışıqların davamı üçün siyasi etikanı qorumalı idi: "Hesab edirəm, onlar qəsdən qıcıqlandırırlar ki, Azərbaycanın səbri tükənsin, öz torpaqlarını güc yolu ilə azad etsin. Bunların qarşıya qoyduğu yol budur. Bu yolu onların havadarları, idarə edənlər onlara göstərib. Azərbaycanın müdafiə naziri hər bir çıxışında ordunun döyüşə tam hazır olduğunu bəyan edir. Sonuncu müşavirədə aktiv döyüşlərə hazır olmaq barədə tapşırıqlar verildi. Bütün bunlar Azərbaycanın hərb yolu ilə torpaqlarını azad etməyə hazır olmasına yönəlmiş mesajlar. Düşünürəm ki, hazırki şəraiti cəmiyyət də anlayır. Bütün heyət cəm şəkildə öz xidməti ilə qoyulan tapşırıqları yerinə yetirməklə məşğuldur. Ermənistan tərəfindən tutulan yol bizə başqa seçim qoymur. Düşünürəm ki, bu çox ciddi vəziyyətdir. Döyüşlərin yenidən aktiv fazaya keçməsi istisna deyil".

Beləliklə, qeyd edilənlərdən bəlli olur ki, Qarabağ savaşının artıq hər an yenilənməsi istisnalıq təşkil etmir. Erməni mediası yazır ki, əslində, yeni savaş ehtimalının artdığı bir dönəmdə Ermənistan bu müharibəyə daha az hazırlıqlıdır. Məsələn, "İrates" qəzeti qeyd edir ki, Azərbaycan savaş hazırlığını artırdığı halda Nikol Paşinyanın başı daxili parçalanmalara qarışıb: "Dağlıq Qarabağ məsəəlsi, mümkün savaşa hazırlıq mövcud hakimiyyət üçün arxa plandadır. Çünki Ermənistanın daxili siyasətində qüvvələrin yenidən paylanması prosesi gedir. "İş odur ki, Paşinyanın komandası aydın şəkildə baş nazirin situasiyaya nəzarət edə bilmədiyini anlayır. Baş nazir hazırda inqilabda rolu olan Soros qanadına, təriqətçilərə, LGTB nümayəndələri və "atalarına" borcunu qaytarmaqla məşğuldur. Transgender Vanuşla (parlamentdə çıxış edən transgender Lilit Martirosyan) əlaqəli son insident Paşinyanın avtoritetini yerlə bir etdi. Onun komandasında hər kəs artıq parlamentdən kənarda yeni yerlər axtarır, həmçinin aktiv proseslər aparılır, komandalar formalaşdırılır, liderlər təyin edilir. Baş verənlərlə bağlı yekun görüntü iyun-iyulda müəyyənləşəcək. Məhz bu vəziyyət hakimiyyəti daha zəif hala gətirir. Özü də bunlar o vaxtda baş verir ki, Azərbaycan Qarabağ məsələsinin güc yolu ilə həllinə dair xəbərdarlıqlarını artırıb. Amma Ermənistanda diqqət bundan yayınır və belə vəziyyətin acı nəticələrini biz 2016-cı ilin aprelində görmüşük".

Qəzet vurğulayır ki, yaranmış vəziyyətdə Paşinyan günahı komandasının üzərinə atmağa çalışır: "Bu hal Paşinyanın "Mənim Addımım" Blokunun deputatları ilə keçirdiyi son qapalı görüşdə özünü bir daha göstərdi. Məlumata görə, görüş zamanı kifayət qədər ciddi danışıqlar aparılıb. Paşinyan görüş zamanı öz komandasının deputatlarından narazılığını dilə gətirib. O, çox sərt və kobud şəkildə bunun onun arzu etdiyi parlament olmadığını deyib və deputatların vaxtlarını yalnız boş yerə xərclədiyini bildirib. Paşinyanın daha bir narazılığı komandasının üzvlərinin onun siyasi xəttinə əməl etməmələrilə bağlı olub. Bəzi deputatlar iclas zamanı Paşinyanın Əliyevlə görüşü barədə maraqlanmağa cəhd ediblər. Bu da Paşinyanı əsəbləşdirib. Baş nazir deputatları Qarabağ konflikti barədə təsəvvürlərinin səthi olmasında ittiham edib və onların elementar mövzular barədə danışa bilmədiklərini söyləyib. Paşinyanın qəzəbi o həddə çatıb ki, deputatlara, "Sizin susmağınızın, yoxsa danışmağınız daha yaxşı olduğunu bilmirəm" sözlərini deyib. Məhz bu vəziyyətdə mövqeləri zəifləyən Paşinyanın Qarabağ məsələsində siyasəti necə davam etdirəcəyi də çox maraq doğurur. Çünki o, Azərbaycan qarşısında daha gücsüz duruma düşür".

"Vahid Ermənistan" partiyasının qurucusu Artur Qazinyan isə qeyd edir ki, yaranmış situasiyada Azərbaycan Ermənistana əlavə təzyiq imkanları əldə edir. O vurğulayır ki, bu durumda Bakı ilk növbədə danışıqlar prosesində istəyinə nail olmağa çalışacaq: "Artıq bu üzdən yeni Vyana gündəmi təsdiq edilir və bu sanki köhnə "Madrid prinsipləri"nə əsaslanır". Qazinyan Qarabağ münaişəsinin danışıqlar prosesi ətrafında baş verən yeniliklərə münasibət bildirərək qeyd edib ki, Paşinyanın səsləndirdiyi bəyanatlarla bağlı öncədən dəstək əldə olunmayıb və nəticədə elə bir vəziyyət yaranıb ki, bəyan edilən bir şeyi həyata keçirmək mümkün olmur.

O, martın 29-da baş verən Vyana görüşünün nəticələrinə toxunarkən bu görüşü danışıq hesab etdiyini bildirib: "Təəssüratları hələ bölüşməyə tələsməzdim, çünki məlumat azdır. Bu kimi istənilən görüş həmişə hadisələrin həqiqətdə nə baş verdiyi gedişatını izləyir. Lakin bu vəziyyətdə, deyəsən sızma yoxdur, görüş prosesinin qərarları və onun məzmunu haqqında iki tərəfin hakimiyyət nümayəndələri tərəfindən aparılan siyasət və edilən bəyanatlardan məlumat əldə edilə bilər... Artıq yeni Vyana gündəmi təsdiq edilir və bu, qeyd etdiyim kimi, köhnə "Madrid prinsipləri"nə əsaslanıb. Bakını bu qane edir və Azərbaycan istədiyinə nail olmasa, savaşa əl atacaq".

Bütün bunlar bir daha təsdiq edir ki, Ermənistan Qarabağ məsələsində danışıqlar zamanı Azərbaycanın istədiyi mövqeni nümayiş etdirməsə, Bakı İrəvanı güc yolu ilə başa salmalı olacaq.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Erməni gənclər ordudan yayınmaq və mühacirət etmək üçün üsul tapıblar - "geyləşmək"...

**Nikol Paşinyanın Ermənistana rəhbərlik etdiyi dövrdə hərbi hissələrdə neqativ hallar artmaqdadır. Orduda əsgərlərin bir-birini odlu silahla öldürməsi halları tez-tez baş verir. Bütün bunlar xalqdan gizlədilir, ölənlərin və intihar edənlərin sayı barədə məlumat verilmir.**

*"Fikirləşirlər ki, gənclər orduya gedib xəstələnməkdənsə, "dedovşina"ya məruz qalmaqdansa, döyüş və..."*

Aparılan araşdırmalardan sonra məlum olub ki, 2018-ci ildə Ermənistan ordusunda 23 əsgər intihar edib. Ümumilikdə isə orduda ölən əsgərlərin sayı 80-ə çatıb.

Erməni hüquq müdafiəçilərinin fikrincə, valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyətini komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olması, əsgərlərin alçaldılması və döyülməsi faktları təşkil edir. Bu səbəblərə görə də valideynlər bütün vasitələrlə övladlarını hərbi xidmətdən yayındırır, müxtəlif bəhanələrlə ölkədən çıxarırlar. Statistik məlumatlar da təsdiqləyir ki, son illər ölkəni tərk edənlər arasında gənclər çoxluq təşkil edir. Onların əksəriyyəti hərbi xidmətdən açıq şəkildə imtina edir. Hazırda Ermənistanda hərbi xidmətdən yayınan gənclərin sayı 11 mindən çoxdur. Bununla belə, 27-35 yaşarası 3225 vətəndaşın orduda xidmətdən yayındığına görə axtarışda olduğu deyilir. Ermənistan qanunvericiliyinə görə, həqiqi hərbi xidmət keçməyən, lakin yaşı 27-yə çatan vətəndaşlar cinayət məsuliyyətindən qaçmaq üçün 1,8 milyon dram (təqribən 3700 ABŞ dolları) məbləğində cərimə ödəməlidirlər. Əks təqdirdə onlar həbs edilirlər. Ermənistanda iqtisadiyyat bərbad gündə olduğu üçün, ordudan yayınanların bir çoxunun belə imkanı yoxdur.

Bu arada o da məlum olub ki, Ermənistanda gənclər ordudan yayınmaq üçün özlərini gey kimi təqdim edirlər. Sözügedən metodla hərbi çağırışdan yayınırlar. Məlumata görə, çağırışçılar arasında geylər və buna meyl artır. Sözügedən vasitələrlə ordudan yayınıb xaricə gedirlər. Bu bir daha Ermənistanda orduya gənclərin marağının olmamasını göstərir. Çox güman ki, belə halların sayı daha da artacaq.

Ermənistanda baş verən bütün bunları ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant İbrahim Rüstəmli Ermənistanda hərbi çağırışla bağlı yaşanan deqradasiyanı bir sıra faktorlarla əlaqələndirdi:** "Ermənistanda orduya çağırış problemi daim aktual olub. Elə çağırış kampaniyaları olub ki, hətta bir nəfər belə tapa bilməyiblər. Bunun müxtəlif səbəbləri var. Bunun ən başlıca səbəbi onunla bağlıdır ki, erməni gəncləri Qarabağla bağlı məsələyə özlərinin milli problemi, maraqları kimi baxmırlar. Yəni Qarabağda gedən döyüşlər, ermənilərin verdikləri itkilər və sair - bütün bunlar əvvəlki ideoloji statusunu itirib. Ona görə də hərbi çağırışa maraq çox aşağıdır. Gənclərin çox az

***İbrahim Rüstəmli:*** *"Ermənistanda çağırışçılar get-gedə geyliyə daha çox meyl göstərməklə ordudan yayınmaq yolunu tutublar"*



bir qismini çağırışa cəlb edə bilirlər. Ermənistan ordusunda zaman-zaman homoseksuallıq və geyliklə bağlı problemlər olub. Bu kimi əxlaqa zidd hərəkətlər yeni deyil. Ancaq müşahidələr göstərir ki, Ermənistanda çağırışçılar get-gedə geyliyə daha çox meyl göstərməklə ordudan yayınmaq yolunu tutublar. Görünür, bu cür yollarla çağırışdan yayınmaq və xaricə getmək onlar üçün daha uyğundur. Bu həm də erməni gənclərinin deqradasiyaya uğramasından xəbər verir. Bir məqamı da nəzərə almaq lazımdır ki, İrəvan erməniləri Qarabağdakı ermənilərə ikinci sort kimi baxırlar. Onların hərəkətlərindən belə çıxır ki, onlara Qarabağ lazım deyil. Yəni Ermənistan cəmiyyətinin müəyyən bir kəsimini ideoloji cəhətdən Qarabağa heç nə bağlamır. Bütün bunların nəticəsidir ki, erməni gəncləri müxtəlif vasitələrlə ordudan yayınırlar. Digər səbəb ondan ibarətdir ki, Ermənistanda sosial-iqtisadi vəziyyət bu gün çox aşağı səviyyədədir. Qarnı ac olan insanlar Qarabağ yükünü daşımaq istəmirlər. Paşinyan ötən 1 ilə yaxın dövrdə iqtisadi sahədə hansısa dönüşə nail ola bilməyib. Erməni cəmiyyəti də bunun fərqindədir. Fikirləşirlər ki, gənclər orduya gedib xəstələnməkdənsə, "dedovşina"ya məruz qalmaqdansa, döyüş və qeyri-döyüş şəraitində ölməkdənsə, çağırışdan yayınmaları daha məqbuldur.

Ona görə də bununla bağlı bütün vasitələrdən istifadə edilir. Düşünürəm ki, Ermənistanda hərbi çağırış kampaniyası ilə bağlı yaşanan problemlər bundan sonra daha da dərinləşəcək".

***Vidadi ORDAHALLI***

# Kiprdə Türkiyə əleyhinə böyük hərbi toplantı başlayıb - Britaniya Kiprə 121 F-35B qırıcıları göndərir

**Böyük Britaniya Hərbi Hava Qüvvələri payız aylarında Kiprin Yunanıstana aid hissəsində yerləşən "Ağrotur" bazasına 121 ədəd F-35B tipli qırıcılar göndərəcək.**



Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, Britaniyaya aid 121 döyüş təyyarəsinin Kiprə göndərilməsi ilə bağlı aprelin 4-də Londonda Yunanıstan müdafiə naziri Savvas Angelidis və britaniyalı həmkarı Gavin Uilliamson arasında memorandum imzalanıb.

İki nazirin memorandum imzalanmasından sonra F-35B döyüş təyyarələrinin Kiprə göndərilməsinə qərar verilib.

Yunan mediası yazır ki, döyüş təyyarələri, başda Suriya olmaqla, Orta Şərqdəki əməliyyatlarda aktiv olaraq istifadə edilən "Ağrotur" bazasına yerləşdiriləcək. Qırıcılar bazaya payızda göndəriləcək.

Qeyd edək ki, sözügedən bölgədə enerji sahəsində dərin gərginlik yaşanır. ABŞ və İsrailin dəstəyilə Cənubi Kiprlə Türkiyə arasında Şimali Aralıq dənizində enerji qaynaqları ilə bağlı anlaşmazlıq hökm sürür.



## Səudiyyə "Ərəb NATO-su"nun yaradılmasına doğru ilk rəsmi addımı atdı...

**Səudiyyə Ərəbistanı "Ərəb NATO-su" olaraq adlandırılan "Strateji Orta Şərq Paktı" yaradılması işinə başlayıb.**

Baki-xeber.com Türkiyə mediasına istinadən xəbər verir ki, Səudiyyə Ərəbistanının rəsmi xəbər agentliyi (SPA), rəsmi Ər-Riyadın bu istiqamətdə ilk addımlarını atdığını da yazır. Agentlik Səudiyyənin bu çərçivədə ABŞ və Ərəb ölkələri arasında təşkil olunan toplantıya ev sahibliyi etdiyini bildirir. Bir neçə gün əvvəl Ər-Riyadda keçirilən toplantıya ABŞ, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Bəhreyn, Küveyt, Oman Sultanlığı, İordaniya və Qətərdən yüksək səviyyəli nümayəndə heyətləri qatılıb. İştirakçıların ad və tutduğu vəzifələri barədə məlumat verilmir.

Toplantı regionda və dünyada sabitlik və təhlükəsizliyin gücləndirilməsini istəyən bir paktın yaranması istiqamətində atılan addım kimi dəyərləndirilir.

Ərəb dünyasında "Ərəb NATOs"u kimi tanınan sözügedən strateji birliyin 2017-vi ilin avqust ayında Ər-Ryadda keçirilən Avropa-ABŞ zirvə toplantısının nəticələrindən biri olduğu ifadə edilib.

**Artıq üç ayını geridə qoyduğumuz 2019-cu il həyatımıza böyük sosial islahatlarla daxil oldu. Ölkə Prezidentinin insanların maddi rifah halının yaxşılaşması məqsədilə verdiyi ardıcıl sosialyönümlü qərarların həyatımızın bütün sahələrini əhatə etdiyini və bu sosial paketdə bütün kateqoriyalardan olan insanların həyatına birbaşa dəxli olacaq islahatların nəzərdə tutulduğunu nəzərə alsaq, perspektivin ürəkaçan olacağı şübhə doğurmur.**

## *Aldığından az qala üçqat çox geri ödəmiş Samirə Səfərovaya UNİBANK-dan rahatlıq vermirlər*







# UNİBANK-ın əməkdaşları devalvasiyadan qabaq jurnalisti aldatdı, Prezidentin məlum sərəncamından sonra hələ də ödəniş tələb edir...

### ***Şəmsəddin Əliyev:*** *"Məlumatıma görə, bu gün təkcə UNİBANK deyil, başqa banklardan da müştərilərə bu cür qanunsuz zənglər gəlir"*



Yəni bu islahatlar şəhid ailələrini, qaçqın-köçkün soydaşlarımızı, çoxuşaqlı ailələri, kiçik və orta sahibkarlar və digər kateqoriya insanları nəzərdə tutduğundan, ümumən ölkə əhalisinin yaşayış səviyyəsinə müsbət mənada təsir edəcəyi şəksizdir.

Sosial paketdən dəstək alacaq daha bir kateqoriya isə banklara borcu olan insanlardır. Daha doğrusu, banklardan dollarla kredit götürüb, sonradan 2015-ci ildə ardıcıl baş verən iki devalvasiya nəticəsində bu borclardan qurtula bilməyənlərdir.

Bəllidir ki, bu il fevralın 28-də Prezident İlham Əliyev banklara 10 min manata qədər borcu olan vətəndaşların böyük sevincinə səbəb olan çox humanist bir fərman verdi. Həmin fərman məlum devalvasiya hadisələri nəticəsində əhalinin banklara artıq ödədiyi xeyli vəsaitin özlərinə qaytarılmasını nəzərdə tutur. Prezidentin bu addımının əhalinin banklara az qala üçqat geri ödədiyi vəsaitinin onlara qaytarılması ilə vətəndaşların sosial rifah halının hansı həddə yaxşılaşacağını düşünməyə ciddi əsas versə də, təəssüf ki, bəzi banklar hələ də vətəndaşlara təzyiq göstərməkdə davam edir, məsələn, UNİBANK kimi...

Konkret fakta keçək. Qəzetimizin əməkdaşı Samirə Səfərova 2013-cü ilin avqustunda həmin banka müraciət edərək 3000 manat nağd pul və 1000 manatlıq "Alkart" götürüb. Təxminən bir ildən bir qədər artıq müddətdə - 2014-cü ilin dekabrına kimi ayda 160 manat məbləği düzənli şəkildə, vaxtlı-vaxtında ödəyib. Lakin iki kreditin ödəniş günləri ayrı olduğundan, göstərilən tarixdə banka müraciət edərək məbləğin toplanaraq yenidən hesablanmasını və zaman itkisi olmasın deyə, ayda bir dəfə ödəniş etməsini istəyib. Bank xahişi qəbul edib, lakin bu dəfə borc dollarla sənədləşdirilib. Müştəri etiraz etdikdə isə ona deyilib ki, siz onsuz da manatla ödəniş edəcəksiniz, bunun sizə dəxli olmayacaq. Lakin düz iki ay sonra dəxli olub - devalvasiya baş verib. Xanım əməkdaşımız banka gedərək kreditləri manatla götürdüyünü, sonradan məhz bankın istəyilə dollarla sənədləşdirildiyini xatırladıb və ona güzəşt tanınmasını istəyib, lakin bank bu xahişi qəti şəkildə rədd edib. Əməkdaşımız isə ödənişləri bundan sonra da devalvasiyaya qədərki məbləğlə ödəməyə davam edib. Bir neçə ay bu şəkildə davam etdikdən sonra bank xanım əməkdaşımızı məhkəməyə verib, halbuki, o, aylıq ödənişlərini dayandırmamışdı, yalnız artan hissəni ödəmirdi, yəni 190 deyil, elə köhnə qaydada 160 manat ödəyirdi ki, bu da, əslində, bu işdə məhkəmə predmeti olmadığının aşkar göstəricisidir. Buna baxmayaraq, Səbail Məhkəməsi bankın xeyrinə qərar çıxarıb və S.Səfərova Apelyasiya Məhkəməsinə müraciət edib, lakin burada hakim açıq şəkildə ona bildirib ki, məhkəmələr bankların əleyhinə qərar çıxarmayacaq, "çalışın, bankla dil tapın". Bundan sonra məhkəmə hər ay əməkdaşımızın hansı vəsaitlə yaşayacağını nəzərə almadan əməkhaqqının 50 faizinin (!) banka ödənilməsi barədə qərar çıxarıb, həmin məbləğ isə, çətin də olsa, vaxtlı-vaxtında banka ödənilib...

Əməkdaşımız deyir ki, bu il fevralın 28-də Prezidentin sözügedən fərmanı imzalaması ilə sanki üzərindən ağır bir yük qalxıb və səbrsizliklə ödənilən artıq vəsaitin qaytarılması üçün banklara verilən vaxtın bitməsini gözləməyə başlayıb. Təbii olaraq aylıq ödənişi də dayandırıb, çünki bundan sonra banka yenə pul verməyi mənasız sayıb. Əməkdaşımızın sözlərinə görə, bu günə qədər banka təxminən 7000 manat civarında pul ödəyib. Lakin indi mart ayında ödəniş etmədiyi üçün bank ona dinclik vermir, aylıq ödəniş tələb edir: "Az qala hər gün zəng vururlar - evə, mobil telefonuma, ailə üzvlərimə... UNİBANK-ın xanım əməkdaşına deyirəm ki, axı bildiyim qədər, indi siz mənə ödəniş etməlisiniz, Prezident fərmanına bu saygısızlığın adı nədir? Deyir ödəməlisiniz, vəssalam. Anlamıram, indiki halda artıq ödənişi tələb etməkdə bunların marağı nədir?"

*"... əhalinin bəzi kəsiminin məlumatsızlığından sui-istifadə edirlər"*

Məsələ ilə əlaqədar mütəxəssislərə müraciət etdik.

**Hüquqşünas Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə bildirdi ki, bankın əməkdaşımızdan pul tələb etməsi müştəriyə qarşı haqsızlıqdır.** Ş.Əliyevin sözlərinə görə, bu gün bəzi banklar Prezidentin müvafiq sərəncamına əhəmiyyət vermək istəmirlər. "Prezidentin sərəncamından sonra sözügedən bankın müştəridən ödəniş tələb etməsi ciddi hüquq pozuntusudur. Müştəri Prezidentin məlum sərəncamına qədər hər ay vaxtlı-vaxtında ödəniş edib. Prezident imzaladığı sənədlə amnistiya elan edib. Müştəri götürdüyü kreditin 2 qatını banka ödəyib, bu halda bank hansı əsasla ondan əlavə ödəniş tələb edir. Onların buna qətiyyən ixtiyarı yoxdur. Samirə Səfərova banka bildirsin ki, götürdüyüm krediti ikiqat ödəmişəm və amnistiya ilə bağlı Prezidentin sərəncamı var, mən sizə əlavə ödəniş etməyəcəyəm. Məlumatıma görə, bu gün təkcə UNİBANK deyil, başqa banklardan da müştərilərə bu cür qanunsuz zənglər gəlir. Banklar bu zənglərlə müştəridən pul qoparmaq istəyirlər. Zəng vururlar, necə deyərlər, "tutdu qatıq, tutmadı ayran", elə müştəri var ki, bankdan çəkinib pulu dərhal ödəyir. Bu gün bəzi banklar əhalinin bəzi kəsiminin məlumatsızlığından sui-istifadə edirlər" - deyə bildirən Ş.Əliyev onu da dedi ki, may ayının 15-nə kimi müştərilərə kompensasiyalar tam şəkildə ödənilməlidir. O, eyni zamanda, vurğuladı ki, bəzi müştərilər krediti zaminlə götürübsə və zamin onun yerinə ödəniş edibsə, zamin duran insanlara da kompensasiya veriləcək.

***İradə SARIYEVA***

**Son dövrlərdə daşınmaz əmlak bazarında yaranan vəziyyətin təhlili Azərbaycanda mənzil alan əcnəbilərin sayının yenidən artmaqda olduğunu göstərir. Əsas etibarı ilə İrandan, bəzi ərəb ölkələrindən, Rusiyadan olan şəxslərin Azərbaycanın mənzil bazarına marağının artması müşahidə olunur. O da maraqlıdır ki, xarici vətəndaşlar üçün Azərbaycanda əsas əmlak bazarı təkcə Bakı deyil, həm də regionlardır.**

# Bakıda və rayonlarda mənzil alan əcnəbilərin sayı çoxalır - ərəblər və iranlılar öndə gedir...

Getdikcə daha çox xarici vətəndaş Azərbaycanın regionlarında əmlak almağa başlayıb. Məsələn, ötən il xaricilər tərəfindən alınan 2 mindən çox əmlakın yarıdan çoxu regionların payına düşüb. Qarşıdakı dövr ərzində də Azərbaycanın əmlak bazarında əcnəbilərin xüsusi çəkisinin artması gözlənilir. Bu, əmlak bazarında dinamikliyi artırmaqla yanaşı, müəyyən qədər qiymət artımına da rəvac verir.

Ümumiyyətlə, son aylarda mənzil bazarında qiymətlərdə müəyyən artım qeydə alınır.

Ekspertlər bunun, əslində, bir sıra səbəblərinin olduğunu bildirir. Məsələn, daşınmaz əmlak məsələləri üzrə ekspert Elnur Azadov səbəblərdən biri kimi inşaat həcminin azalmasını qeyd edir: "2017-2018-ci illərdə mənzil və inşaat bazarında müəyyən qədər aktivlik var idi. Həm yeni, həm də köhnə tikili mənzillərin bazarında aktivlik müşahidə edildi. Lakin şəhərsalma arxitekturası tərəfindən yeni standartların tətbiq edilməsi ilə əlaqədar olaraq bu il inşaat həcminin azalması proqnozlaşdırılır". Onun sözlərinə görə, inşaat bazarında qaydalar sərtləşdirildiyi üçün, mühitin rəqabətli olmasına baxmayaraq, şirkətlər qiymətləri qaldırmaq niyyətindədir: "Yeni normalar tətbiq edildikcə bazarda rəqabət azalacaq. Nəticədə isə qiymətlər 30-40 faizədək qalxacaq". Ekspert bu ilin əvvəlindən etibarən mənzil bazarında alıcılıq səviyyəsinin aşağı düşdüyünü deyib: "Belə davam edərsə, yerli investorlar xarici bazarlara maraq göstərəcək. Onu da qeyd edim ki, təkcə bu ilin fevralında azərbaycanlılar tərəfindən 7 tikinti şirkəti Türkiyədə qeydiyyata alınıb". E.Azadovun sözlərinə görə, hazırda Bakı və ətraf ərazilərdə 250-yə yaxın inşaat layihəsi həyata keçirilir.

Amma qiymətləri təkcə inşaat həcminin azalması və əcnəbilərin daşınmaz əmlak bazarına marağı yüksəltmir. Daşınmaz əmlak məsələləri üzrə digər ekspert Nüsrət İbrahimov da vurğulayır ki, bu il və gələn il üçün mənzil bazarında qiymətlərin artımı qaçılmazdır. Onun sözlərinə görə, ümumən əmlak bazarında canlanma var: "Təkrar mənzil bazarında qiymətlərdə 1 faizdən çox artım qeydə alınıb. Torpaq, kommersiya obyektləri bazarında qiymət artımı müşahidə edilir". Hesab edilir ki. bu da tələbin artması ilə bağlıdır.

Ekspert prezidentin çoxmənzilli binaların çıxarışla təmin olunması barədə sərəncamının ilkin mənzil bazarında qiymətlərə təsirindən də danışıb. Bildirib ki, daşınmaz əmlak bazarında bu istiqamətdə qiymət artımı, əsasən, gələn il hiss olunacaq: "Çıxarışların verilməsinin ilkin mənzil bazarına təsiri hələ hiss olunmur, çünki 500-ə yaxın binadan cəmi 4 bina çıxarış alıb. Ona görə də, bunun təsirindən danışmaq tezdir. Təsiri gələn il olacaq. Çıxarışlı mənzillərlə çıxarışsız mənzillərdə 100-200 manat qiymət fərqi olur. Bu, qiymət artımına bir qədər təkan verir. Digər tərəfdən, alqı-satqı portfelində yeni tikililərin sayında çoxalma baş verəcək. Bu çoxalma da təklifin artmasına gətirib çıxarır və nəticədə qiymətin stabilləşməsinə təsir edə bilər".



Xatırladaq ki, Prezident İlham Əliyevin imzaladığı "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi" haqqında fərmanı 400-dək yaşayış kompleksinə şamil olunacaq, 50 minədək mənzili əhatə edəcək. Beləliklə, 10 minlərlə ailənin mənzil problemi öz həllini tapacaq.

Dövlət başçısının fərmanı 2019-cu il yanvarın 1-dək tikilən, tam təhvil verilən, istismara qəbul olunmayan və faktiki olaraq insanların yaşadığı binalara şamil edilir. Əmlak ekspertlərinin fikrincə, ötən müddətdə bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlara yol verilib, sakinlərin hüquq və maraqları nəzərə alınmadan aparılıb. Hətta təsdiqlənmiş layihələrdən kənara çıxılması hallarına rast gəlinib. Bu da həmin binaların rəsmiləşdirilməsini qeyri-mümkün edirdi. Eyni zamanda, mənzil üçün tələb olunan vəsaiti ödəmiş sakinlərin mülkiyyət hüquqlarını təsdiq edən sənədlərin yoxluğu da onlara ciddi problemlər yaradırdı.

Məlum fərman isə vətəndaşları narahat edən, ümumilikdə mənzil idarəçiliyi baxımından yığılıb qalan problemlərin həllinə gətirib çıxarır. Amma artıq bütün sənədləri qaydasında olan mənzillərin satış qiyməti də müəyyən qədər artır. Lakin hesab edilir ki, dövlət hesabına tikilən və güzəştli şərtlərlə satılan mənzillərin sayının artması, həmçinin yenə dövlət tərəfindən tikinti şirkətlərinə yaradılan şərait qarşıdakı dövrdə qiymətlərin sabit həddə qalmasına, hətta müəyyən qədər ucuzlaşmasına gətirib çıxarmaq iqtidarındadır.

***Tahir TAĞIYEV***

**Beynəlxalq Valyuta Fondu 2019-cu ildə Azərbaycanda ümumdaxili məhsulun artımını 3,4 faiz səviyyəsində proqnozlaşdırır. Bu barədə Fondun dərc etdiyi "World Economic Outlook" aprel ayının icmalında qeyd olunur.**

# Beynəlxalq Valyuta Fondunun bu il Azərbaycanda ÜDM artımı proqnozu nələrə əsaslanır...

***Pərviz Heydərov:** "Azərbaycan iqtisadiyyatı inkişaf dövrünü yaşayır"*



*"...bu vəziyyət beynəlxalq maliyyə təşkilatlarının hesabatlarında geniş şəkildə əks olunur"*

Qeyd edək ki, 2018-ci ilin oktyabr ayında BVF cari il üçün Azərbaycanda ÜDM-in artımını 3,6 faiz səviyyəsində proqnozlaşdırırdı. Fondun qiymətləndirmələrinə əsasən, 2020-cu ildə Azərbaycanda ÜDM-in artımı 3,1%-dək azalacaq. Fondun proqnozlarına görə, 2024-cü ildə Azərbaycanda ÜDM-in artımı 1,7% təşkil edəcək. 2019-2020-ci illərdə Azərbaycanda inflyasiya 2,5 faiz təşkil edəcək. Fond 2024-cü ildə Azərbaycanda orta illik inflyasiyanı 3% səviyyəsində proqnozlaşdırır.

**Məsələ barədə fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, beynəlxalq təşkilatlar, xarici maliyyə qurumları Azərbaycan iqtisadiyyatının inkişafı haqqında məlumatlar yayırlar:** "Məlumdur ki, 2014-2015-ci illərdən sonra ölkə iqtisadiyyatında vəziyyət dəyişdi. Həmin illərdə dünya bazarında neftin satış qiyməti kəskin şəkildə enəndən sonra ölkə iqtisadiyyatı tənəzzülə uğradı, ümumdaxili istehsal məhsulu aşağı düşdü, manatın məzənnəsi xarici valyutaya nisbətən iki dəfə zəiflədi. 2017-ci ildən etibarən ölkə iqtisadiyyatında vəziyyət müsbətə doğru dəyişdi. 2018-ci ildən etibarən iqtisadiyyatda artım tempi özünü kəskin şəkildə büruzə verdi. Ölkə iqtisadiyyatının inkişafı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirildi, müvafiq islahatlar aparıldı. Eyni zamanda, 2016-cı ilin sonlarından etibarən dünya bazarında neftin satış qiyməti stabilləşdi. Azərbaycanın dövlət gəlirlərinin təmin olunması üçün əlverişli şərait yarandı. Görülən işlər sayəsində ölkə iqtisadiyyatında müsbət tendensiya özünü göstərməkdə davam edir".

Həmsöhbətimiz onu da vurğuladı ki, ölkə iqtisadiyyatının inkişafı istiqamətində görülən işlər sayəsində Azərbaycan iqtisadiyyatı inkişaf dövrünü yaşayır. Bu inkişaf beynəlxalq maliyyə təşkilatlarının hesabatlarında geniş şəkildə əks olunur.

Onun fikrincə, ölkə iqtisadiyyatının inkişafı növbəti illərdə də özünü göstərəcək.

***Günel CƏLİLOVA***

# Sosşəbəkələrdə peyda olmuş intihar videolarını kütləvi tirajlamaq insanlıq işi deyil...

**Bakı şəhərinin Səbail rayonunda yerləşən 162 saylı məktəbin VIII sinif şagirdi Elina Hacıyevanın intihar görüntüləri yayılıb. Videodan da görünür ki, məktəblini kimsə itələməyib və yaxud təsadüfən yıxılmayıb.**

***Kamilə Əliyeva:*** *"Bu cür videoların yayılması hər yaş qrupunda olan insana mənfi təsir göstərir"*

***Müşfiq Ələsgərli:*** *"İntihar, terror halları ilə bağlı detalların..."*

***Aynur Musayeva:*** *"İntihar görüntülərinin yayımlanması mütləq dayandırılmalıdır"*







Xatırladaq ki, Elina Hacıyeva aprelin 4-də məktəbin pəncərəsindən özünü aşağı ataraq, intihar edib. Çox sayda ağır xəsarətlər alan qız iki gün sonra xəstəxanada vəfat edib. Məktəbin direktoru Sevinc Abbasova ona müraciət edənlərə Elinanın pozğun və uğursuz ailənin övladı olduğunu, anasının ikinci dəfə ailə qurduğu, ikinci nikahdan kiçik uşaqları olduğuna görə Elina ilə maraqlanmadığını yazmağı xahiş edib.

E.Hacıyevanın intihar videosunun sosial şəbəkədə yayılması ölkə ictimaiyyəti tərəfindən qınaqla qarşılanır. Vəzifəsindən asılı olmayaraq, hər kəs intihar videosunun yayılmasının düzgün olmadığını və bu tip paylaşımların uşaqların psixologiyasına mənfi təsir etdiyini anlamalıdır.

**Milli Məclisin deputatı Kamilə Əliyeva "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, kriminal videogörüntülərin yayılmasının əleyhinəydir:** "Bir deputat, vətəndaş olaraq bu cür halların yayılmasının əleyhinəyəm. Bu cür informasiyalar insanların psixikasına mənfi təsir edir. Çünki istər saytlar, istərsə də televiziyalar olsun, azyaşlı uşaqlardan tutmuş, normal və psixoloji durumu yerində olmayan insanlar da baxır. Bu cür videoların yayılması hər yaş qrupunda olan insana mənfi təsir göstərir. Düşünürəm ki, bu cür halların qarşısını almalıyıq. Saytlarda, sosial şəbəkələrdə bu cür halları işıqlandırırıqsa, bunun məqsədi olmalıdır. Bunları işıqlandırmaqla qarşısını alırıqmı?! Halbuki, bu, maarifləndirici iş deyil. Bunun yayılmasında nə məqsəd güdürlər? Ona görə də tam olaraq yayılmasının əleyhinəyəm".

**Media eksperti Müşfiq Ələsgərli qeyd etdi ki, bu kimi hallar jurnalistlərin peşə davranış qaydalarında da öz əksini tapıb:** "İntihar, terror halları ilə bağlı detalların, xüsusilə də gənclərdə meyil yaradacaq nüansların yayımı qəti qadağandır. Bu yolverilməzdir. Səbəbləri isə kifayət qədər izah olunub. Hazırda sosial şəbəkə istifadəçiləri arasında yetkinlik yaşına çatanlar da, çatmayanlar da var. Bu, ciddi problem yarada bilər. Belə hallar Azərbaycan jurnalistlərinin peşə davranış qaydalarının III prinsipi ilə məhdudlaşdırılaraq, qadağan edilib. Bu kimi hallar dəfələrlə olub və bəzi kütləvi informasiya vasitələrinə xəbərdarlıq edilib. Onlara belə görüntülərin yayımının yolverilməzliyi bildirilib. Bu, qəti şəkildə pislənməlidir".

**Uşaq İnkişaf Mərkəzinin direktoru, psixoloq Aynur Musayeva bizimlə söhbətində qeyd etdi ki, intihar görüntülərinin yayımlanması mütləq dayandırılmalıdır.** Çünki intihar videonu izləyən uşaqlara çıxış yolu kimi görünə bilər: "Belə getsə, bu, onların motivasiya proqramı olacaq. Şagirdlərin videoya reaksiyası isə yaş qruplarına görə fərqlənir. Azyaşlılar başqa, böyüklər isə tamam fərqli reaksiya verə bilərlər.Video kiçikyaşlı uşaqlarda daxili fobiya, qorxu yarada bilər. Həyatlarında belə bir prosesin baş verəcəyi barədə qorxuya düşə bilərlər.

Yeniyetmələri isə video bu istiqamətə yönəldə bilər. Çünki onlar valideynləri, ətraf şəxslərin basqısına məruz qalır, problem yaşayırlar. Bu, həmin yeniyetmələrə çıxış yolu kimi görünə bilər. Bu tip videolar intihar və ölümü uşaqlar üçün adiləşdirəcək. Buna ən asan çıxış yolu kimi baxacaqlar. Ona görə də hərəkətə keçib bunun qarşısını almalıdırlar.

Aqressiya və şiddətə meyllilik uşaqların fərdi xarakterik xüsusiyyətləri ilə bağlıdır. Onları cəmləyib ümumi bir nəticə çıxarmaq düzgün deyil. Amma video da bu aqressiyanı kəskinləşdirə bilər. Qısası, o görüntülər bütün uşaqlar üçün psixoloji travmadır və qarşısı alınmalıdır".

Həmsöhbətimiz hesab edir ki, artıq videonu izləyən şagirdlərin həyatının təhlükədə olduğunu əsas gətirərək, onlar üçün xüsusi tədbir görülməlidir: "Valideyn və müəllimlər bu videonu izləmiş məktəblilərlə xüsusilə maraqlanmalıdırlar. Çünki onlar artıq bu reaksiyanı veriblər və şüuraltına intihar yeridilib. Həmin uşaqlar mütləq araşdırılmalıdır".

*Günel CƏLİLOVA*

# 10 ildə Azərbaycan əhalisi 1 milyon nəfər artıb - prosesin sosial-iqtisadi kökləri...

**"Son 15 ildə əhalinin 1,7 milyon nəfər artımı bizim gücümüzü, ölkəmizin qüdrətini artırır". Xəbər verildiyi kimi, bu fikirləri Prezident İlham Əliyev Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşündə deyib.**




*"Müsbət miqrasiya saldosu davam edir"*

***Rəsul Cahangirli:*** *"Hazırda ölkədə demoqrafik vəziyyətin müsbət səviyyədə olmasında iqtisadi inkişafın müstəsna rolu var"*

Ölkə başçısı əhalinin artımının birbaşa sosial vəziyyətlə bağlı olduğunu vurğulayıb: "Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda, onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır".

Bütövlükdə, əhalimizin sayı hər il sabit şəkildə artır. Bütün bunlar demoqrafik inkişafa təkan verir.

Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Azərbaycan müstəqillik əldə etdikdən sonra əhalinin sayı artıb, azalmayıb. Ancaq Azərbaycandan fərqli olaraq, Ermənistanda əhali azalır. Belə ki, 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Ermənistan əhalisinin sayı 634,7 min nəfər azalıb. 2018-ci ildə Azərbaycanda 139 min uşaq doğulduğu halda, Ermənistanda doğulan uşaqların sayı 36502 nəfər olub.

Göründüyü kimi, Azərbaycanda demoqrafik vəziyyət çox yaxşı məcrada inkişaf edir. Bütün bunlarla yanaşı, Azərbaycanda əhalinin artması hansı sosial-iqisadi amillərlə bağlıdır?

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu bir sıra amillərlə bağlıdır: "Məsələ ondadır ki, Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində çoxsaylı nailiyyət əldə olunub. Ölkədə iqtisadi inkişaf əhalinin bütün təbəqələrinin həyat şəraitinə müsbət təsir göstərir. Əhalinin gəlirləri artıb, yeni iş yerləri açılıb, bölgələrdən paytaxta axın azalıb, regionlarda istehsal və xidmət sahələri yaradılıb. Sosial xərclər artıb. Təbii ki, bütün bunlar əhalinin sosial rifah halına müsbət təsir göstərir. Nəticədə ölkə əhalisinin sayı artır. Yəni bunda sosial rifah səviyyəsinin davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır. 2003-cü ilin əvvəlindən ölkə əhalisinin sayı 18 faizdən çox artıb. Bunun nəticəsidir ki, ölkədə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. Onu da qeyd edim ki, əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Hazırda ölkədə demoqrafik vəziyyətin müsbət səviyyədə olmasında iqtisadi inkişafın müstəsna rolu var.

**Əhali artımı məhz bu amillərlə bağlıdır. Əhalinin gəlirləri artır, sosial vəziyyət yaxşılaşır. Bütün bunlar, təbii ki, əhalinin artmasına öz müsbət təsirini göstərir".**

*Vidadi ORDAHALLI*

**Son dövrlər bir sıra teatrlar müxtəlif qalmaqal predmeti olaraq gündəmə gəlirlər. Bir sıra teatrlarda teatr rəhbərliyi ilə xalq və əməkdar artistləri arasında ciddi narazılıqlar baş verdiyi gizlin deyil.**

# Xalq artisti Bəsti Cəfərovanın "Azdrama" rəhbərliyinə ünvanladığı ittihamlara teatrdan cavab gəldi



*"Hazırda hər aktyora öz istəyinə görə rol verilməsi təcrübəsi real deyil"*

***Cavid Zeynallı:** "Bəsti Cəfərova müsahibəsində bir qədər emosiyaya qapılır və qeyri-dəqiq qənaətlər səsləndirir"*

Xalq artistlərinin bir çoxu mətbuata verdikləri açıqlamalarda bildirirlər ki, yaşlarına görə teatrlarda ayrıseçkiliklə üzləşirlər, onlara rol verilmir, oynadıqları tamaşalar teatrların repertuarından çıxarılır və s.

Bilirik ki, son bir neçə ildə bu məsələdə ən çox qalmaqal, söz-söhbət yaşanan teatrlardan biri Akademik Milli Dram Teatrıdır. Bu teatrda həm köhnə, həm də yeni rəhbərliyin dövründə aktyor və aktrisalarla bağlı müəyyən qalmaqallar yaşanıb, sənətkarlar teatr rəhbərliyini bir sıra məsələlərdə ittiham ediblər.

Akademik Milli Dram Teatrının aparıcı aktrisalarından olan xalq artisti Bəsti Cəfərova mətbuata müsahibəsində çalışdığı teatrda teatr rəhbərliyi tərəfindən ayrıseçkiliyə məruz qaldığını bildirib. O qeyd edib ki, teatrda baş rol oynadığı bəzi tamaşalar repertuardan yığışdırılıb, oynadığı tamaşalar hər ay repertuara salınmır. "Yubileyi olan aktyorlar üçün tamaşa və yubiley gecələri ənənəsi bütün teatrlarda var. Biz cavan olarkən əlli yaşı olan aktyorlara belə yubiley gecələri keçirilirdi. 2019-cu ildə də mənim yubiley yaşım olduğu üçün, yubiley tamaşası barədə arzumu bədii rəhbər Azərpaşa Nemətova bildirdim. O da mənə əsər seçilməsi barədə düşündüyünü və tapşırıq verdiyini söylədi.

Ancaq ikinci dəfə dekabrda onun yanına gedəndə Azərpaşa Nemətov mənə dedi ki, bu haqda nazirliyə demişəm. Bildiriblər ki, Bəsti Cəfərovanın tamaşası var, oradakı rolunu ifa edər, biz də onun yubileyini təbrik edərik. Mən israr etdim ki, həmin tamaşanı artıq bir ildir oynayıram və yubileyimdə tamaşaçıların qarşısına yeni tamaşa ilə çıxmaq istəyirəm.

Bundan sonra Azərpaşa Nemətov mənə yeni bir əsər seçib ona təqdim etməyimi istədi. Mən əsər seçib onun yanına gedəndə isə gözləmədiyim münasibətlə qarşılaşdım. Əsəri ona təqdim edəndə dedi ki, mən sənə dedim axı, tamaşa qoymağa pul yoxdur. Əgər o mənə əvvəl gedəndə desəydi ki, pul yoxdur, mən əsər seçib onun yanına gedərdim? Təbii ki, yox. Mən ondan xəbər alanda ki, bundan sonra tamaşa qoyulmayacaq? O, "Afinalı Timon" və "On ikinci gecə" tamaşalarını yenidən səhnəyə qoyacağını söylədi. A.Nemətovun sözlərindən belə çıxdı ki, onun qoyduğu tamaşalara pul var, mənim üçün hazırlanacaq yubiley tamaşasına isə yoxdur" - deyə aktrisa bildirib.

Teatr Xadimləri İttifaqında bir neçə sənət adamının "Sənətkar medalı" ilə təltif olunmasına da münasibət bildirən aktrisa qeyd edib ki, adını o siyahıda görməyib və buna görə də 1980-ci ildən üzvü olduğu Teatr Xadimləri İttifaqının üzvlüyündən imtina edir.

A.Nemətovun ona yaxşı münasibət bəsləmədiyini də qeyd edən aktrisa bildirib ki, o heç vaxt ona tamaşasında rol verməyib: "A.Nemətov məni aktrisa kimi sevmirsə, rol verməsin. Necə ki, indiyə qədər verməyib. Amma o, bizim teatra rəhbər gələndə bilməliydi ki, orada Bəsti Cəfərova, Nurəddin Mehdixanlı, Ramiz Novruzov kimi aktyorlar var. İndi o məni aktrisa kimi sevmirsə, mən ərizəmi yazıb teatrdan çıxası deyiləm ki...".

B.Cəfərovanın səsləndirdiyi ittihamlar nə dərəcədə həqiqəti əks etdirir? Doğrudanmı teatr rəhbərliyi tərəfindən ona belə bir münasibət sərgilənib?

**Xalq artisti B.Cəfərovanın müsahibəsində səsləndirdiyi fikirlərə münasibət bildirən teatrın mətbuat katibi Cavid Zeynallı "Bakı-Xəbər"ə bildirdi ki, teatr rəhbərliyinin B.Cəfərova başda olmaqla, hər bir aktyora böyük hörməti, ehtiramı var:** "Rəhbərlik teatrda sağlam mühitin qorunması, yaradıcı atmosferin saxlanması üçün bütün mümkün vasitələrdən istifadə edir. Bu mənada, hörmətli sənətkarımız Bəsti xanımın özünü "qərib" hiss etməsi anlaşılan deyil. Teatrın bədii rəhbəri-direktoru, xalq artisti A.Nemətov kollektivlə ilk görüşündə bəyan etdi ki, bu teatrın qapısından içəri girən hər bir insan mənə əzizdir, doğmadır. Bu əziz və doğmalıqdan B.Cəfərovaya və onun adını çəkdiyi sənətkarlarımız N.Mehdixanlı və R.Novruzova da ən yüksək mənada pay düşür. Onların rol aldığı tamaşalar hər ay repertuara salınır. B.Cəfərova, N.Mehdixanlı və R.Novruzov bu gün Akademik Milli Dram Teatrının sevilən, tamaşaları baxılan sənətkarlarıdır. Son illərdə onların oynadığı bir-birindən maraqlı rollara olan tamaşaçı sevgisi bunu sübut edir. A.Nemətov bütün ömrünü teatr sənətinə həsr edən insandır. Ayrıseçkilik onun dünyagörüşünə, sənətə münasibətinə ziddir. A.Nemətovun bir arzusu, istəyi var: yaradıcı müstəvidə, maddi-texniki bazanın zənginliyi müstəvisində teatrımızı indikindən dəfələrlə irəli aparsın. O bunu öz böyük missiyası hesab edir. B.Cəfərova ilə bərabər. B.Cəfərova müsahibəsində bir qədər emosiyaya qapılır və qeyri-dəqiq qənaətlər səsləndirir. Məsələn, yubiley tamaşası istəmək... Əlbəttə, oynamaq, çalışmaq gözəl arzudur. Amma bu arzu teatrın imkanları, repertuar planı ilə üst-üstə düşməlidir. Bəsti xanım özü dediyi kimi, bir il əvvəl "Qətibə İnanc" tamaşasının premyerasını keçirib. O tamaşa bu gün də uğurla oynanılır. Hazırda hər aktyora öz istəyinə görə rol verilməsi təcrübəsi real deyil. Siz təsəvvür edirsinizmi, məsələn, bizim teatrın 17 xalq artisti hər biri ayrıca tamaşa istəsin? Burada ümumi prinsip əsas götürülməlidir və əsas da götürülür. Məlumat üçün deyim ki, A.Nemətov da özünə yubiley keçirmir, belə şeylərdən çoxdan imtina edib. Bəsti xanımın Teatr Xadimləri İttifaqının üzvlüyündən imtina etməsi isə onun şəxsi işidir".

**C.Zeynallı, həmçinin, qeyd etdi ki, İttifaq könüllü, ictimai təşkilatdır, hər bir üzvün istəyinə hörmətlə yanaşır. "Bəsti xanımı yubileyi münasibətilə təbrik edirik. Onu hələ daha böyük rollar, daha gözəl çiçəklər, daha gur alqışlar gözləyir" - deyə mətbuat katibi vurğuladı.**

*İradə SARIYEVA*

# Hər 1000-1500 şagirdə bir psixoloq - məktəblərdə ştat sayını necə artırmaq olar...



*"Yeni qanun layihəsində məktəblərdə psixoloqların təyinatı məsələsi də nəzərdə tutulub"*

***Məlahət Mürşüdlü:** "Düşünürəm ki, builki qəbul imtahanlarında ali məktəblərin psixologiya fakültələrinə qəbul olunanların sayı artırılmalıdır"*

**Azərbaycan orta ümumtəhsil məktəblərində ixtisaslı psixoloq çatışmazlığı özünü göstərir. Araşdırmalara görə, Azərbaycanda 1000-1500 şagirdə bir psixoloq düşür.**

Mütəxəssislərin bildirdiyinə görə, Azərbaycan məktəblərində əlavə psixoloq ştatı yaradılmalıdır ki, onlar şagirdlərlə məqsədyönlü işlər apara bilsinlər.

Qeyd edək ki, 162 saylı orta məktəbdə baş verən olaydan sonra məktəb psixoloqlarının sayının artırılması aktuallaşıb.

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə bildirdi ki, Milli Məclisdə ikinci oxunuşdan keçən yeni "Təhsil haqqında" qanun layihəsində məktəblərdə psixoloqların sayı və fəaliyyətinin təmin olunması ilə də bağlı bəndlər yer alıb. O hesab edir ki, qanun layihəsi sentyabra qədər qəbul olunsa, məktəblərdə bu problemin həlli istiqamətində addımlar atılacaq. "Yeni qanun layihəsində məktəblərdə psixoloqların təyinatı məsələsi də nəzərdə tutulub. Düşünürəm ki, bu qanun layihəsi sentyabra qədər Milli Məclis tərəfindən təsdiq olunacaq və buna uyğun addımlar atılacaq. Yeni qanun layihəsində məktəb psixoloqlarının sayının artırılması kimi məsələlər nəzərə alınıb. Ancaq məsələ burasındadır ki, bizim məktəblərdə təhsilli psixoloq kadrlarının çatışmazlığı müşahidə olunur. Hesab edirəm ki, bu istiqamətdə ali məktəblərdə qəbul sayını artırmaq lazımdır. Ona görə ki, məktəblərimiz tam olaraq ixtisaslı psixoloq kadrları ilə təmin olunsunlar. Təkcə Bakı və digər şəhər məktəblərinə deyil, rayon və kənd məktəblərinə də psixoloqlar lazımdır. Bunu da nəzərdən keçirsək görərik ki, psixoloqların sayı tələbatı ödəmir. Düşünürəm ki, bununla yanaşı, addımlar atılmalı, builki qəbul imtahanlarında ali məktəblərin psixologiya fakültələrinə qəbul olunanların sayı artırılmalıdır" - deyə M.Mürşüdlü bildirdi.

*İradə SARIYEVA*

# Gürcüstan azərbaycanlıları üçün Bakıda təhsilli molla yetişdirmək təklifi...

## *Hacı Təyyar Hüseynli: "Gürcüstanda yaşayan soydaşlarımızın, dindarların Azərbaycanda İlahiyyat İnstitutunda dini təhsil almalarına şərait yaradılması çox təqdirəlayiq hal olardı"*

**Gürcüstanda yaşayan soydaşlarımızın bütün qayğı və problemlərinin həllinə, habelə onların təhsil məsələsinə Azərbaycan dövləti hər zaman ciddi dəstək verir. Bu gün Gürcüstanda yaşayan azərbaycanlıların dini təhsil alması hazırda aktual məsələlərdən biridir. Bunu Gürcüstan Müsəlmanları İdarəsinin (GMİ) sədri Hacı Ramin İgidov da qeyd edib.**



O, mətbuata bildirib ki, Gürcüstanın azərbaycanlı din xadimlərinin Azərbaycanda dini təhsil almalarına ehtiyac var.

R.İgidovun bildirdiyinə görə, Gürcüstanda olan müsəlman din xadimləri müxtəlif ərəb və qonşu ölkələrdə təhsil alırlar: "Onların müəyyən hissəsi Gürcüstan tərəfindən tanınan dini təhsil ocaqlarında biliklərə yiyələnirlər. Lakin, təəssüflər olsun ki, bəzi din xadimləri qeyri-ənənəvi dini cərəyanların təbliğ olunduğu təhsil müəssisələrini bitirərək, yanlış biliklərə malik olurlar. Bəzən onlar Gürcüstana ekstremist və təhrifçi fikirlərlə dönürlər və bu da ölkə üçün təhlükədir. Bu baxımdan, Gürcüstan azərbaycanlılarının Azərbaycanda dini təhsil almaları ilə bağlı təşəbbüsü dəstəkləyirik".

R.İgidov qeyd edib ki, rəhbərlik etdiyi qurum Gürcüstandan azərbaycanlı din xadimlərinin dini təhsillə bağlı Azərbaycana göndərilməsi istiqamətində əməkdaşlığa hazırdır: "İdarəmiz Qafqaz Müsəlmanları İdarəsi və digər müvafiq qurumlarla əməkdaşlığa hazırdır. Azərbaycanda dini təhsil alan Gürcüstanın azərbaycanlı vətəndaşları savadlı olmaqla yanaşı, həm də Gürcüstan ictimaiyyəti tərəfindən də qəbul olunmalıdırlar".

O, həmçinin, qeyd edib ki, Gürcüstanda qeyri-ənənəvi dinlər geniş yayılıb və bu ölkənin müsəlman din xadimlərinin Azərbaycanda təhsil almaları bu cür təhlükəli dini cərəyanların qarşısını ala bilər.

Sözügedən məsələ ilə bağlı Azərbaycan İlahiyyat İnstitutu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə əlaqə saxladıq, hər iki qurumdan bildirdilər ki, müraciət edən tərəf rəsmi instansiya olmadığı üçün, bu məsələyə şərh verə bilməzlər.

**Dinşünas Hacı Təyyar Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycanda ali təhsil almasına şərait yaradılsa, bunun böyük faydası olar.** "Əvvəla deyim ki, Gürcüstan Müsəlmanları İdarəsinin rəhbəri hacı Ramin İgidovu hələ yeniyetməlik illərindən tanıyıram, o, mənim tələbə yoldaşımdır. 14 yaşımızdan bir yerdə oxumuşuq. O, Qardabani rayonundan olan soydaşımızdır. Hacı Ramin İgidov Gürcüstanda yaşayan azərbaycanlıların sağlam dini təhsil alması üçün məqsədyönlü, faydalı iş aparır. Onun bu istiqamətdə fəaliyyətini təqdir edirəm. Cəlil Məmmədquluzadənin dövründən indiyə kimi başqa ölkələrdə dini təhsil alanlar oradakı dini təhsillə bərabər qarışıq cərəyanları da, xalqımıza, dövlətimizə zərər vuran fikirləri də daşıyıb gətirirlər. Yəni onlar aldıqları dini təhsildən əlavə, bu kimi xoşagəlməzlikləri də bura daşıyırlar. Gürcüstanda yaşayan dindarların məhz Azərbaycanda təhsil alması olduqca əhəmiyyətli olardı. Bu gün ölkəmizdə İlahiyyat İnstitutu yaranıb və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi çox yetkin, sivil, cəmiyyətimizə, milli məfkurəmizə uyğun işlər həyata keçirir. Gürcüstanda yaşayan soydaşlarımızın, dindarların Azərbaycanda İlahiyyat İnstitutunda dini təhsil almalarına şərait yaradılması çox təqdirəlayiq hal olardı. Onların burada təhsil alması ideyasını dəstəkləyirəm və bu işə tərəfdaram" - deyə o bildirdi.

*İradə SARIYEVA*

# Babək prospektinə "şeytan tüpürüb" - yol yenə çökdü...

## *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi: "Əraziyə baxış keçiriləcək və qısa müddət ərzində problem aradan qaldırılacaq"*

## *Azər Allahverənov: "Aidiyyəti qurumlar yolda baş vermiş çökmənin səbəblərini..."*

**Son üç il ərzində Azərbaycanda yollarda kifayət qədər çökmə və sürüşmə prosesi baş verib. Bayılda iki ev, bir küçə divarı, Zığ prospektində yamac, Badamdarda isə torpaq sürüşməsi qeydə alınıb. Daha da dəqiq desək, 2017-ci ildə Mirəli Seyidov küçəsində, 2018-ci ildə Həsən Əliyev və Cəlil Məmmədquluzadə küçələrində, Tbilisi, Qara Qarayev, Səməd Vurğun prospektlərində, Xırdalanda, Sumqayıtda, 2019-cu ildə isə Nobel prospektində və Sumqayıtda yol çöküb.**



Yol çökməsi ilə bağlı hadisələrdə adətən qurumlar məsuliyyəti bir-birinin üzərinə atır. Açıqlama verən rəsmilər əksər hallarda səbəb kimi qrunt sularının torpağı yumasını göstərirlər. Hətta kanalizasiya xətlərinin çürüyərək istifadəyə yararsız hala düşməsi barədə fikirlər də səsləndirilir.

Onu da bildirək ki, Azərbaycan Prezidentinin sərəncamları əsasında dövlət büdcəsindən 2018-ci ildə Azərbaycanda avtomobil yollarının tikintisi və təmirinə 672,05 mln. manat ayrılıb. Ölkədə respublika və yerli təyinatlı 1,887 min km avtomobil yolu tikilib və əsaslı təmir olunub. Bu sahədə görülən işlərə baxmayaraq, təəssüf ki, yolların çökməsi faktı hələ də yaşanır.

Növbəti yol çökməsi bu günlərdə Babək prospektində qeydə alınıb. Yeni təmirdən çıxmış Babək prospektində yenidən çökmə olub. Yolun bir hissəsində yaranan çökəklik bu yoldan istifadə edənlərə çətinliklər yaradır. Sürücülər məcbur olaraq ya avtomobili çökəkliyə salmalı olur, ya da ani manevr etməklə qəza şəraiti yaradırlar. Həmin yoldan istifadə edən sürücülər deyirlər ki, yolda yaranan maneədən yayınmaq üçün avtomobili ani olaraq sağa-sola çəkməli olurlar. Nəticədə digər sürücülər üçün real qəza şəraiti yaranır. Xüsusilə də qaranlıq saatlarında çuxuru görmək daha çətin olur.

Qeyd edək ki, Babək prospektində yol bu yaxınlarda təmir olunaraq sürücülərin istifadəsinə verilmişdi. Təmirdən qısa müddət keçən kimi yol yenidən çökür.

Baş vermiş hadisəyə münasibət bildirən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən isə qeyd olundu ki, əraziyə baxış keçiriləcək və qısa müddət ərzində problem aradan qaldırılacaq.

Nəqliyyat məsələləri üzrə **ekspert Azər Allahverənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, aidiyyəti qurumlar yolda baş vermiş çökmənin səbəblərini araşdırmalı, yaradılmış komissiya hadisə ilə bağlı rəy verməlidir: "Çökmə müxtəlif səbəblərdən baş verə bilər.** Ola bilər ki, həmin yolun altından su axır. Çox güman ki, yollarda baş verən çökmələrin səbəbləri yer altından axan nəzarətsiz sular və kanalizasiya xətləridir. Su axını yerin altını yuyur və müəyyən boşluqlar (çökəklik) yaradır. Bir müddət sonra da həmin ərazilərdə çökmə baş verir. Aidiyyəti qurumlar bu kimi məsələləri araşdırıb zəruri tədbirlər həyata keçirməlidirlər".

*Günel CƏLİLOVA*

# Bakı restoranları havaya tüstü püskürməyi hələ dayandırmayıblar

**"Ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən görülən tədbirlərin tərkib hissəsindən biri də havaya atılan tullantıların azaldılması və normalara cavab verməsidir.**

Bu məqsədlə ictimai-iaşə obyektlərində monitorinqlər aparılıb, təmizləyici qurğuların quraşdırılması üçün kompleks tədbirlər görülüb. Deyə bilərik ki, artıq restoran və şadlıq saraylarının 90 faizində qurğular quraşdırılıb".

Baki-xeber.com Sputnik Azərbaycan-a istinadən xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında ETSN-nin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin direktor müavini Anar Tağıyev bildirib.

Onun sözlərinə görə, bəzi ictimai-iaşə obyektləri hələ də tələblərə riayət etmir: "Bəzi şadlıq sarayları və restoranlardan havaya tüstünün, iyqoxunun yenidən yayılması ilə bağlı ETSN-ə şikayətlər daxil olduğundan tərəfimizdən təkrar monitorinqlərə başlanılıb. Keçirilən monitorinqlər zamanı təmizləyici qurğuların filtrlərinin vaxtaşırı təmizlənməmədiyi səbəbindən 31 obyektdən havaya yenə də normadan artıq tullantıların atıldığı məlum olub. Bunlar "Real", "Golden Ring", "Sonalar Sonası", "Milord", "Həyat", "Cənnət", "Flaminqo", "Qızıl Buta", "Madonna", "Afrodita", "Oazis", "Qızıl Tac", "Gold Palace", "Niel", "İdeal", "Şəhanə" və digər şadlıq saraylarıdır ki, onların sahiblərinə çirklənmiş filtrlərin vaxtlı-vaxtında dəyişdirilməsi barədə göstərişlər verilib. Araşdırma və monitorinqlər davam etdirilir". ETSN rəsmisi onu da bildirib ki, təmizləyici qurğuların quraşdırılması ilə iş bitmir, bundan sonra da qurğulara davamlı texniki xidmət göstərilməli, filtrlər vaxtaşırı dəyişdirilməli, verilən göstərişlər yerinə yetirilməlidir: **"Ümumiyyətlə, havanı çirkləndirən amillərə qarşı ciddi mübarizə aparılması qarşımıza mühüm vəzifə kimi qoyulub və bundan sonra da bu istiqamətdə Nazirlik tərəfindən lazımi və sərt tədbirlər görüləcək".**

№ 64 (3962) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

11 APREL 2019-cu il

www.baki-xeber.com

# Peyk üzәrindәn internetә çıxış üçün sistem yaradılır



**"Amazon" şirkәti ucqar regionlarda yaşayan istifadәçilәrin peyk üzәrindәn internetә çıxışı üçün öz sistemini yaratmağa hazırlaşır.**

Bu haqda "GeekWire" nәşri mәlumat verib. Jurnalistlәr aydınlaşdırıblar ki, ABŞ Federal Rabitә Komissiyası "Amazon"a mәxsus "Kuiper Systems LLC" şirkәtinin maraqları naminә radiotezlik vә orbitlәrdәn istifadә üçün Beynәlxalq Telekommunikasiya İttifaqına 3 әrizә tәqdim edib. "CTnews" ildirir ki, sәnәdlәrә görә, sistem müxtәlif orbitlәr üzәrindә yerlәşәn 3236 aparatdan ibarәt olacaq. "Amazon"un nümayәndәlәri "GeekWire" nәşrinә bildiriblәr ki, "Kuiper" şirkәtin layihәsidir.

## Elan

Azәrbaycan Dövlәt İqtisad Universitetinin tәlәbәsi Cavadov Mobil Habil oğluna verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Hәsәnov Əsgәr Yusif oğlunun adına, Bakı şәhәri, Binәqәdi rayonu, 7 mkr. ev 5/13, mәnzil 17 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Əsgәrzadә Nicat Mehman oğluna Azәrbaycan Dövlәt İqtisad Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

İsmayılbәyli Nәrgiz Azәr qızına Bakı Dövlәt Universiteti tәrәfindәn verilmiş tәlәbә bileti itdiyi üçün etibarsız sayılır.

Əmirov Rauf Əhmәd oğlunun adına, Bakı şәhәri, Rәsulzadә qәsәbәsi, Y.Hәsәnov küçәsi, ev 17 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Ağayev Ağayar Ağakәrim oğlunun adına, Bakı şәhәri, Sәbail rayonu, Ə.Nizami küçәsi, ev 100, mәnzil 1 ünvanına verilmiş qeydiyyat vәsiqәsi (kupça) itdiyi üçün etibarsız sayılır.

Manizadә Şәrqiyә Qәmbәr qızının adına, Bakı şәhәri, S.Rüstәm küçәsi, 37 B ünvanında yerlәşәn 51 saylı qarajın texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Kәrimova Filyar Əhmәdiyyә qızının adına, Abşeron rayonu, Mehdiabad qәsәbәsindә yerlәşәn torpaq sahәsinә verilmiş çıxarış (seriya RX № 0373705) itdiyi üçün etibarsız sayılır.

Hüseynov Eldar Mansur oğlunun adına, Bakı şәhәri, Xәtai rayonu, General Mehmandarov küçәsi, ev 54, mәnzil 10 ünvanının çıxarışı (seriya № 0741679) itdiyi üçün etibarsız sayılır.

## "Breyn Rinq" izlә, "Nar"dan hәdiyyә qazan!

**Tәhsilә, elmә vә maariflәnmәnin tәbliğinә xüsusi önәm verәn "Nar"ın baş sponsorluq etdiyi "Breyn Rinq" intellektual bilik yarışlarının on üçüncü mövsümü davam edir.**

Hәr il olduğu kimi, bu mövsüm dә televiziya tamaşaçıları üçün xüsusi müsabiqә keçirilir. Belә ki,yarışın yayımı zamanı "Nar"ın "Facebook" hesabında qoyulan suala әn tez cavab verәn izlәyicilәr xüsusi hәdiyyәlәr qazanırlar. "Breyn Rinq" hәvәskarları bu intellektual yarışı izlәmәklә yanaşı, "Nar"dan hәdiyyә qazanmaq şansı da әldә edirlәr.

Mart ayının qaliblәri olan "Facebook" istifadәçilәrinin adları artıq mәlumdur: Elşәn Kazımov, Ceyhun Mәhәrrәmov vә Əli Mәmmәdov.

Qeyd edәk ki, "Breyn Rinq" bilik müsabiqәsindә respublikanın 17 bölgәsi vә 11 ali mәktәbini tәmsil edәn 34 komanda iştirak edir.Yarışlar hәr hәftәnin bazar günü saat 20:00-da İctimai Televiziyada yayımlanır. İntellektual oyunun qalibi iyun ayında mәlum olacaq vә qalib komanda "Nar" kubokunun sahibi olacaq.

Qeyd edәk ki, "Nar" gәnclәri stimullaşdırmaq üçün müxtәlif bilik yarışları, intellektual oyunları dәstәklәmәyә çalışır vә bununla da onların elmә, tәhsilә, biliyә olan marağını artırmağa sәy göstәrir.

Ətraflı mәlumatı https://www.facebook.com/Narofficial hesabından әldә etmәk mümkündür.

"Azerfon" şirkәti ("Nar" ticarәt nişanı) 21 mart 2007-ci ildә fәaliyyәtә başlayaraq qısa bir müddәtdә Azәrbaycanda telekommunikasiya vә mobil rabitә sahәsinin aparıcı şirkәtlәrindәn birinә çevrilib."Nar" ticarәt nişanı Azәrbaycanın zәngin mәdәni vә tarixi irsinin çağdaş hәyatla bağlılığının rәmzi olaraq seçilib. "Nar" ölkәdә ilk dәfә olaraq 3G texnologiyasını tәqdim edib vә geniş 4G şәbәkәsini abunәçilәrin istifadәsinә verib. Nar" şәbәkәsi hazırda ölkә әrazisinin 97%-ni (işğal olunmuş әrazilәr istisna olmaqla) әhatә edir vә 7400-dәn artıq baza stansiyası ilә 2,2 milyondan çox abunәçiyә yüksәk keyfiyyәtli xidmәt göstәrir.

## TƏBRİK!

Bu gün Atilla Babәkoğlunun 1 yaşı tamam olur. Bu münasibәtlә onu bütün ailә üzvlәri - anası Fәridә, babaları Əbülfәt, İmran, nәnәlәri Zәrnigar, Gülçin, bacıları Nigar, Aysu, bibilәri Nilufәr, Sәnubәr, әmisi Anar, xalası Sәma, dayısı Rәşad, bibisi Gülü ürәkdәn tәbrik edirlәr. Tanrı qorusun! Onun adına babası Əbülfәt Mәdәtoğlunun yazdığı bu şeir ad günü hәdiyyәsidir:



Sәn güvәndiyim igid
Qürur duyduğum adam...
Sәn hәm nәvә payımsan
Hәm dә atamsan, atam -
Atilla!

Ev meydanım, sәn çapar
Qalmır heç nә üst-üstә...
Şәnlәnmәyә yer tapar
Babandan dәstәk istә -
Atilla!

Çәkinmә, nә keçirsә
Ürәyindәn söküb qur...
Çalış kişi tәk böyü
Ayağın üstә bәrk dur -
Atilla!





**Qoç** - Diqqәtli, ayıq vә sayıq olun. Yeni iş ritminә uyğunlaşmağınıza imkan verәn tәkanları tәmin edәn bütün dәyişikliklәr vә yeniliklәrә sürәtli reaksiya verin. Əmәkdaşlığı düzgün qurun, işi vә yükü bölüşdürün.

**Buğa** - Praktiki işlәrlә mәşğul olun, yaşam arealını qaydaya salın. Uzun müddәt rutin, yeknәsәk iş görülәsi mәkanda sәbrli olun. Yaşamınızda yaranan mövzuları müşahidә edin. Tәşәbbüs vә tәklif sarıdan korluq yoxdur.

**Əkizlәr** - Hesablamalar, dәyәrlәndirmәlәr vә emosional reaksiyalarda yanlışlığa yol vermәyin. Sәmimiliyiniz gözlәntilәrinizin әksinә olaraq, fәrqli davranışa rәvac verәcәk. Alış-veriş, maliyyә әmәliyyatlarını tәxirә salın.

**Xәrçәng** - Çoxdan bәri nigranlıqla gözlәdiyiniz xәbәri alacaqsınız. Ödәniş, tәklif vә rәğbәt tәzahürü istisna deyil. Bu gün ifrat aktivlik nümayiş etdirmәyin. Günün ikinci yarısı uğurlu dönәmdir.

**Şir** - Yaxşı "dava" vә ya müsabiqә, habelә qarşıdurma gözlәntisindәn qurtulun. Müsbәt emosiyalar, hәyata real baxış, perspektivlәrin vә yeni imkanların dәyәrlәndirilmәsinә ehtiyac var.

**Qız** - Qәfil hadisәlәr vә ya şәrtlәr bir zamanlar unutmağa çalışdığınız mövzunu sizә xatırladacaq insanla görüşә rәvac verә bilәr. Yaxın günlәrdә sizi intensiv, xüsusi zәhmәt tәlәb edәn işlәr gözlәyir.

**Tәrәzi** - Aldığınız xәbәrә vәziyyәtin tәlәb etdiyindәn artıq emosional reaksiya göstәrmәyin. Adekvat davranın. Hisslәr vә hәyәcanlar baş verәnlәri dәqiq dәyәrlәndirmәyә mane olmamalıdır.

**Əqrәb** - Maraqlı, amma qarışıq gündür. Şәrtlәrin sıralanmasını uğursuz hesab etmәk әvәzinә situasiyadan maksimum yararlanmağa çalışın. Baş verәn hadisәlәr, sadәcә, ötәnlәrdәki әmәllәrinizin әks-sәdası vә indiyә gәlib çatan mesajlardır.

**Oxatan** - Əvvәllәr yol verdiyiniz sәhvlәri tәkrarlamayın. Mәram vә niyyәtlәrinizin miqyasını genişlәndirin, sevdiyiniz insanları sevindirin. Vәdlәrinizi yerinә yetirin vә görülmәmiş işlәr silsilәsini bitirin.

**Oğlaq** - Yarımçıq qalmış işlәri başa vurun, borcları ödәyin, yaşam arealında nizam yaradın. Şәxsi mәsәlәlәrin hәllinә vaxt ayırın. Olayların sürәt vә intensivliyindәn asılı olmayaraq, soyuqqanlı davranın.

**Dolça** - Yüz ölçüb-bir biçin vә bu prinsipdәn günün önәmli situasiyalarında yararlanın. Yeni seçim variantlarının qәflәtәn yarandığı vәziyyәtlәrdә yalnız inanılmış, etibar etdiyiniz tәrәfdaşlara güvәnin.

**Balıqlar** - Emosiyaları qaydaya salmaq üçün yaxşı gündür. Sevdiyiniz insanların qayğısına qalın, onlara qarşı hәssas vә sәmimi olun. Yaradıcılıq imkanlarınız yüksәk sәviyyәdәdir. Axşam saatlarında sakit vә rahat istirahәti seçin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

## İsrail sahillәrindә süni ada inşa edilәcәk



**İsrail sahillәrindә süni ada inşa edilәcәk. "Trend" xәbәr verir ki, adanın planlaşdırılması vә mühәndis işlәrinin hәyata keçirilmәsi ilә bağlı tenderdә Niderland şirkәti qalib gәlib.**

Qeyd olunur ki, İsrail sahillәrindә süni adaların inşa olunması planları 2002-ci ildә tәklif olunub. Plana әsasәn iki süni adanın inşası nәzәrdә tutulur. Adaların birindә beynәlxalq hava limanı fәaliyyәt göstәrәcәk, digәr ada isә yaşayış üçün nәzәrdә tutulacaq.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә
Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39
e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846
Qәzet hәftәdә 5 dәfә çıxır.
(Bazar vә bazar ertәsindәn başqa).
«BZ»-dә çap olunur.
Sifariş: №2514 Tiraj: 3050

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.